










# 2025 Vətəndaşın Büdcə Bələdçisi




*"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir."*

# VƏTƏNDAŞIN BÜDCƏ BƏLƏDÇİSİ



# 2025

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Hər vətəndaşın büdcəsi | 3 |
| Ölkəmizin büdcə sistemi | 4 |
| Büdcə nə vaxt və necə tərtib olunur? | 5 |
| Dövlət büdcəsinin strukturu | 6 |
| Büdcənin gəlirləri necə formalasir? | 6 |
| Büdcə gəlirlərinin formalaşma mənbələri | 7 |
| Büdcə xərcləri | 8 |
| Funksional bölgü | 8 |
| İqtisadi bölgü | 9 |
| İnzibati bölgü | 10 |
| Büdcənin gəlir və xərcləri arasindaki fərq | 11 |
| Yola saldığımız ilə qısa baxış... | 12 |
| 2025-ci ilin makroiqtisadi proqnozları nə vəd edir? | 14 |
| Dövlət büdcəsi üçün çağırışlar... | 16 |
| 2025-ci ilin icmal büdcəsi | 17 |
| 2025-ci il üçün büdcə-vergi siyasətinin əsas istiqamətləri | 19 |
| 2025-ci ilin büdcəsi nəvəd edir? | 21 |
| 2025-ci ilin dövlət büdcəsi | 23 |
| Dövlət büdcəsinin gəlirləri | 23 |
| Büdcə gəlirlərinin strukturu | 24 |
| Dövlət büdcəsinin xərcləri | 28 |
| Büdcə xərclərinin iqtisadi təsnifat üzrə bölgüsü | 29 |
| Sosialyönlü xərclər | 30 |
| Təhsil xərcləri | 31 |
| Təhsil xərclərinin tərkibində tədbir və proqramların maliyyələşməsi | 32 |
| Elm xərcləri | 35 |
| Səhiyyə xərcləri | 36 |
| Sosial müdafiə və sosial təminat xərcləri | 39 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi... | 42 |
| Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti... | 45 |
| Kənd təsərrüfatı xərcləri | 46 |
| Mənzil və kommunal təsərrüfatı xərcləri | 48 |
| Ətraf mühitin mühafizəsi | 49 |
| İqtisadi fəaliyyət | 50 |
| Əsas bölmələrə aid edilməyən xərclər | 52 |
| Məqsədli büdcə fondları | 53 |
| Beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlara üzvlük haqları və digər xərclər | 55 |
| Əsaslı xərclərin istiqamətləri | 56 |
| Dövlət büdcəsinin yerli gəlir və xərcləri | 58 |
| Dövlət büdcəsinin kəsiri | 59 |
| Dövlət borcu | 60 |
| Yaşıl büdcə | 63 |

# HƏR VƏTƏNDAŞIN BÜDCƏSİ

**Əziz vətəndaş!**

“Vətəndaşın büdcə bələdçisi” nəşri ilə növbəti dəfə görüşünüzə gəlmişik. Əvvəlki illərdə olduğu kimi bu dəfə də çalışmışıq dövlət büdcəsi barədə sizə ətraflı məlumat verək. O büdcə ki, böyük Azərbaycan ailəsinin gəlir və xərclərini özündə birləşdirir. Dövlət büdcəsi övladlarımızın yüksək səviyyəli təhsilində, əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışında, pensiyaçıların və əlillərin zəruri sosial təminatında əsas qarant rolunu oynayır. Bu büdcə ölkənin hərbi qüdrətinin güclənməsinin, təhlükəsizliyinin təmin edilməsinin, fövqəladə halların vaxtında aradan qaldırılmasının zəmanətçisidir. Çünki dövlət büdcəsi olmasa, müəllimlərin, həkimlərin, hərbiçilərin, məmurların, polislərin maaşlarını, pensiyaçıların, əlil şəxslərin və tələblərin təqaüdlərini, imkansızların sosial yardımlarını ödəmək mümkünsüz olar. Dövlət büdcəsi olmasa, kənd təsərrüfatında çalışan fermerlərimiz subsidiyalar və texnikalar, kiçik və orta sahibkarlıq subyektləri güzəştli kreditlər əldə edə bilməzlər. Ən nəhayət dövlət büdcəsi bizə imkan verir ki, işğaldan azad olunmuş ərazilərdə irihəcmli infrastruktur layihələri həyata keçirək, 30 illik işğaldan sonra azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionunu yenidən dirçəldək. Dövlət büdcəsi, həmçinin bizə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirə ev sahibliyi etmək imkanı verib.

Dövlət büdcəsi də ailə büdcəsi kimidir. Ailədə olduğu kimi dövlət də hər il büdcə planlaşdırması həyata keçirir, proqnozlar əsasında öz gəlir mənbələrini və xərc istiqamətlərini müəyyənləşdirir, zərurət olduqda borc alır. Bununla da ölkənin və vətəndaşların həyatı vacib olan bütün ehtiyac və tələbatlarını dayanıqlı şəkildə təmin edən xəzinə formalaşdırır.

Hər ilin sonunda dərc etdiyimiz, əsasən cədvəl və rəqəmlərdən ibarət olan Büdcə zərfi sənədləri ancaq mütəxəssislər üçün başadüşülən və anlaşılandır. Sadə vətəndaşlar üçün bu rəqəmlər yorucu və cansıxıcı olur. Bütün bunları nəzərə alaraq dövlət büdcəsində əks olunan zəruri informasiyaları sadə və yığcam formada, daha aydın üslubda vətəndaşlara çatdırmaq, onlara bələdçilik etmək üçün “Vətəndaşın büdcə bələdçisi” kitabı nəşr olunur. Hər il oxucuların ixtiyarına verilən bu nəşrin növbəti buraxlışında 2025-ci ilin büdcə zərfinə daxil olan dolğun informasiyalar əks etdirilib. Hər bir vətəndaş Maliyyə Nazirliyinin rəsmi internet səhifəsinə daxil olaraq büdcə barədə məlumatlardan xəbərdar ola bilər.

Bu ilin büdcə portfelində başlıca əsas xərc prioriteti kimi müdafiə və təhlükəsizlik tədbirləri yer alır. Xərclərin demək olar ki, 20 faizi həmin sahəyə yönəldiləcək.

Büdcə xərclərində ikinci ümdə vəzifə Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir. Həmin tədbirləri maliyyələşdirmək üçün xərclərin təxminən 10 faizi həcmində vəsait nəzərdə tutulub ki, bunun sayəsində azad olunmuş ərazilərdə müasir infrastrukturların yaradılması, şəhər və kəndlərin, yaşayış evlərinin tikintisi ilə bağlı aparılan fasiləsiz işlər daha da genişlənəcək.

İnanırıq ki, oxucular 2025-ci ilin büdcəsində onlara lazım olan məlumatları “Vətəndaşın büdcə bələdçisi”ndə tapmaqla, ümumilikdə büdcə sənədi haqqında yetərli təsəvvürə malik olacaqlar.

**Maliyyə Nazirliyi**



# ÖLKƏMİZİN BÜDCƏ SİSTEMİ



# BÜDCƏ NECƏ VƏ NƏ VAXT TƏRTİB OLUNUR?

## Yanvar

Nazirlər Kabinetinin qərarı ilə növbəti il və sonrakı üç il üçün dövlət büdcəsinin layihəsinin tərtibi prosesinə başlanılır. (Bu prosesdə aidiyyəti orqanlara - Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, rayon və şəhər icra hakimiyyəti və digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilir.)

## Aprel

İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını hazırlayır. Maliyyə Nazirliyi dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir. Hazırlanmış sənədlər Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən Nazirlər Kabinetinə təqdim edilir.

## May

Maliyyə Nazirliyi büdcə layihəsini və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubunu may ayının 1-nə kimi büdcənin tərtibi prosesində iştirak edən təşkilatlara göndərir.

## İyun-İyul

İqtisadiyyat Nazirliyi tərəfindən həmin ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və ortamüddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir. Maliyyə Nazirliyi isə dəqiqləşdirilmiş proqnoz və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri yenidən hesablayır. Dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar təlimat məktubuna uyğun olaraq hazırlanmış büdcə layihəsini Maliyyə Nazirliyinə təqdim edirlər.

## Sentyabr

Dəqiqləşdirilmiş göstəricilər dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla razılaşdırılır və müvafiq qaydada rəsmiləşdirilir. Maliyyə Nazirliyi dövlət büdcəsinin və icmal büdcənin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir. Nazirlər Kabineti büdcə sənədlərini Prezidentə təqdim edir.

## Oktyabr

Büdcə layihəsi oktyabr ayının 15-dən gec olmayaraq Prezident tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilir.

## Noyabr-Dekabr

Dövlət büdcəsinin və icmal büdcənin layihələri parlamentin komitələrində və plenar iclaslarda müzakirə edilərək qəbul olunur.

## Dekabr

Büdcə layihəsi haqqında qanun dövlət başçısı tərəfindən imzalanaraq qüvvəyə minir.



# DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU

Azərbaycanda büdcə prosesi ölkə Konstitusiyası, “Büdcə sistemi haqqında” Qanun, “Vergi Məcəlləsi”, “Gömrük məcəlləsi”, “Dövlət büdcəsinin tərtibi və icrası qaydaları”, “Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası”, “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası” və digər normativ-hüquqi aktlar vasitəsilə tənzimlənir və həmin sənədlərə uyğun olaraq həyata keçirilir.





# Büdcənin gəlirləri necə formalaşır?

Dövlət öz gəlirlərini və xərclərini tarazlaşdırmaq yolu ilə büdcəsini formalaşdırır. Əgər gəlirlər qarşıya qoyulmuş məsələlərin maliyyə təminatına imkan verirsə, onu təsdiq edir. Yox, əgər xərclər gəlirləri üstələyərsə, onda bir sıra xərcləri ixtisar etməyə, hətta xərclərin müəyyən hissəsini növbəti illərə keçirməyə, bu da bəs etmədikdə xərclərin gəlirlə örtülməyən hissəsinin, yəni kəsirin bağlanması üçün maliyyəşdirmə mənbələri axtarmağa məcbur olur.



## Büdcə gəlirlərinin formalaşma mənbələri

Dövlət büdcəsinin gəlirləri bir neçə mənbələrdən formalaşır.
Bura vergilər, rüsumlar və sair gəlirlər aiddir.



### VERGİLƏR

Fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, torpaq və əmlak vergiləri, aksiz vergisi, mədən vergisi və yol vergisi daxildir.

### RÜSUMLAR

Gömrük və dövlət rüsumları daxildir.






### SAİR GƏLİRLƏR

Dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən, büdcə təşkilatlarının ödənişli xidmətlərindən, səhmlərində dövlət payı olan müəssisələrdən alınan dividendlər, cərimələr, büdcədən verilmiş kreditlər üzrə daxilolmalar aiddir.

### BÜDCƏLƏR ARASI TRANSFERTLƏR

Dövlət büdcəsindən Naxçıvan MR-nın büdcəsinə, yerli büdcələrə, büdcədənkənar dövlət fondlarına, məqsədli büdcə fondlarına, büdcədənkənar dövlət fondlarından və məqsədli büdcə fondlarından dövlət büdcəsinə, Naxçıvan MR-nın büdcəsinə və yerli büdcələrə əvəzsiz verilən maliyyə vəsaitidir.



# BÜDCƏ XƏRCLƏRİ

XƏRCLƏR

MƏRKƏZLƏŞDİRİLMİŞ XƏRCLƏR

YERLİ XƏRCLƏR

Büdcə xərcləri məqsədindən asılı olaraq **funksional, iqtisadi** və inzibati prinsiplər əsasında qruplaşdırılır. Bu qruplaşma **büdcə təsnifatı** adlanır. Misal üçün funksional təsnifat üzrə büdcə xərcləri aşağıdakı kimi qruplaşdırılır:

## FUNKSİONAL BÖLGÜ

1. Ümumi dövlət xidmətləri
2. Müdafiə və milli təhlükəsizlik
3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq
4. Təhsil
5. Səhiyyə
6. Sosial müdafiə və sosial təminat
7. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti
8. Mənzil və kommunal təsərüffatı xəcləri
9. Kənd təsərrüfatı
10. Ətraf mühitin mühafizəsi
11. İqtisadi fəaliyyət
12. Əsas bölmələrə aid edilməyən xidmətlər

# BÜDCƏ XƏRCLƏRİ






# BÜDCƏ XƏRCLƏRİ
## İNZİBATİ BÖLGÜ

01 Qanunvericilik orqanları

02 Yuxarı icra hakimiyyət orqanları

03 Nazirliklər

04 Xaricdəki diplomatik nümayəndəliklər və konsulluqlar

05 Dövlət komitələri

06 Digər hüquqi şəxslər

07 Xidmətlər

08 Fondlar

09 Səhmdar Cəmiyyətlər

10 Məhkəmə və hüquq mühafizə orqanları

11 Nəqliyyat təşkilatları

12 İdarələr

13 Komissiyalar

14 Agentliklər

15 Mərkəz və şuralar

16 Palatalar

17 Elm və ali təhsil müəssisələri

18 İctimai təşkilatlar, istehsalat birlikləri

# BÜDCƏNİN GƏLİR VƏ XƏRCLƏRİ ARASINDAKI FƏRQ

**BALANSLI BÜDCƏ**

Büdcənin gəlirlərinin onun xərcləri ilə eyni olması **balanslaşdırılmış büdcə adlanır.**



**BÜDCƏ ARTIQLIĞI (PROFİSİT)**

Büdcənin gəlirlərinin onun xərclərini üstələməsi büdcə artıqlığı və ya büdcə profisiti adlanır.



**BÜDCƏ KƏSİRİ (DEFİSİT)**

Büdcənin gəlirlərinin onun xərclərindən az olması büdcə kəsiri və ya büdcə defisiti adlanır.








# YOLA SALDIĞIMIZ İLƏ QISA BAXIŞ...

2024-cü il Azərbaycan dövləti və xalqı üçün çox əlamətdar və uğurlu il kimi yadda qaldı. Öz ərazi bütövlüyünü və bütün əraziləri üzərində dövlət suverenliyini tam bərqərar etmiş Azərbaycanın müstəqillik dövründə ilk dəfə bütün ərazilərində ümumxalq seçkilər - prezident və parlament seçkiləri keçirildi. Fevral ayında xalqımız 20 il ərzində ölkəmizi misilsiz iqtisadi yüksəlişə və ümdə hədəflərə çatdırmış, ən müqəddəs arzumuz olan Qarabağı 30 illik işğaldan azad etmiş cənab İlham Əliyevə növbəti dəfə ehtiram və etimad göstərərək yenidən ali dövlət kürsüsünə seçdi. Sentyabr ayında isə ölkəmizin ictimai-siyasi həyatında digər mühüm hadisə olan VII çağırış Milli Məclisə seçkilər keçirildi.

Ötən il Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) layiqli ev sahibliyi etməklə təşəbbüskar və nümunəvi təşkilatçılıq modelini ortaya qoyan dövlət kimi nüfuz və etimadını möhkəmləndirdi. 80-dən çox ölkənin dövlət və hökumət başçılarının qatıldığı tədbirdə iqlim dəyişikliklərinin yaratdığı problemlər və onların qarşısının alınması üçün birgə təşəbbüs mexanizmləri müzakirə edildi.

Azərbaycan iqtisadiyyatı 2024-cü ildə daha da böyüdü, yanvar-iyun ayları ərzində formalaşmış güclü fiskal-maliyyə yığımları dövlət büdcəsinin gəlir və xərclərinin artırılması üçün əlverişli zəmin yaratdı. Elə bu səbəbdən də 2024-cü ilin dövlət büdcəsinin gəlir və xərclərinə dəyişiklik edildi. Dəyişiklik nəticəsində büdcənin gəlirləri 6,5% artırılaraq **36 milyard 388 milyon manata**, xərcləri isə 8,1% artırılaraq **39 milyard 742,3 milyon manata** çatdırıldı.

Büdcə xərcləri, ilk növbədə əsas milli hədəfimiz olan Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin daha da sürətləndirilməsinə yönəldildi. Bu maliyyə təminatı sayəsində 2024-cü ildə işğaldan azad edilmiş ərazilərdə bir sıra mühüm infrastrukturlar, yol-nəqliyyat qovşaqları, yaşayış binaları istifadəyə verildi. Böyük Qayıdışın növbəti addımı kimi 32 illik Vətən həsrətindən sonra Azərbaycanın və İslam dünyasının mədəniyyət paytaxtı olan Şuşaya doğma sakinlərin geridönüşü baş verdi, Xocalı, Cəbrayıl, Xankəndi və digər ərazilərə ləyaqətli və əbədi dönüş gerçəkləşdi. Qarabağ Universitetinin öz qapılarını azərbaycanlı tələbələrə açması ilə təhsilimizdə yeni qürurverici mərhələ başladı.

Ümumilikdə, azad olunmuş ərazilərdə böyük quruculuq işləri çərçivəsində 2021-2024-cü illər ərzində dövlət büdcəsindən **17 milyard manat**dan çox maliyyə təminatı yaradılıb.

Ölkənin ərazi bütövlüyü təmin edildikdən sonra bölgədə yaranmış yeni reallıqlar, həmçinin Ermənistanın silahlandırılması nəzərə alınaraq Silahlı Qüvvələrimizin döyüş hazırlığı və maddi-texniki təchizatının müasirləşdirilməsi, müdafiə qabiliyyətinin daha da gücləndirilməsi ötən il ən ümdə xərc prioriteti kimi diqqətdə saxlanıldı. Dövlət büdcəsində edilmiş dəyişikliklər nəticəsində müdafiə və milli təhlükəsizlik xərcləri **705 milyon manat**dan çox artırıldı.

Ümumilikdə, 2024-cü il sürətli iqtisadi inkişaf ili kimi xarakterizə oluna bilər. Yanvar-sentyabr aylarında ölkədə **92,8 milyard** və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çox ümumi daxili məhsul istehsal olunub ki, əlavə dəyərin 7,1 faizi qeyri-neft-qaz sektorunda yaradılıb. Bu dövrdə ölkəmizin güclü təhlükəsizlik yastığı olan strateji valyuta ehtiyatlarının həcmi **72 milyard dolları** ötüb, xarici borcumuz əhəmiyyətli dərəcədə azaldılaraq **5 milyard dollar**a bərabər olub.

2024-cü ilin doqquz ayında dövlət büdcəsinə proqnozlaşdırılandan 0,2 faiz çox vəsait daxil olub. Büdcənin gəlirləri **53,4 milyon manat** artaraq **27 milyard 737 milyon manat**a çatıb. Büdcə xərclərində isə proqnoz **42,2 milyon manat** çox icra edilib və nəticədə xərclərin həcmi **25 milyard 174 milyon manat** olub. Dövlət büdcəsinin vəsaiti hesabına bütün xərc sifarişləri tam və vaxtında təmin edilməklə **2 milyard 563 milyon manat** məbləğində profisit yaranıb.

Bütün bu müsbət makroiqtisadi göstəricilər Azərbaycanın 2024-cü ili uğurlu və əlamətdar dövr kimi başa vurduğunu təsdiqləyir.



Şuşa, 2024-cü il

# 2025-Cİ İLİN MAKROİQTİSADİ PROQNOZLARI NƏ VƏD EDİR?

2025-ci ildə ölkədə ÜDM real ifadədə 3,5 faiz artaraq **129,2 milyard manat,** o cümlədən qeyri-neft-qaz ÜDM real ifadədə 4,9 faiz artaraq **92,2 milyard manat** təşkil edəcək. Bu il ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının 71,3 faizə çatacağı gözlənilir. Proqnozlara əsasən, 2025-ci ildə neft-qaz sektoru üzrə ÜDM real ifadədə 0,5 faiz artacaq.
Dövlət büdcəsində "Azərilayt" markalı xam neftin və təbii qazın qiyməti proqnozlara müvafiq olaraq 1 barrel üçün 70 ABŞ dolları və 1 min kubmetr üçün 242 ABŞ dolları qəbul edilməklə hesablanıb.

**Neft sektorunun payı** **Qeyri-neft sektorunun payı**









2026-2028-ci illər üzrə xam neftin bir barelinin qiyməti 65 ABŞ dolları, təbii qazın min kubmetrinin qiyməti isə 236 ABŞ dolları olacağı proqnozlaşdırılır. Ortamüddətli dövrün sonuna ÜDM **150,8 milyard manat**adək yüksələcək, onun qeyri-neft-qaz sektoruna aid hissəsinin xüsusi çəkisi isə 77,8 faizədək artacaq.



Ələt Azad İqtisadi Zonası, 2023-cü il

İqtisadiyyat Nazirliyi tərəfindən baza ssenaridə orta illik inflyasiya göstəricisi 2025-ci ildə 4,6 faiz, 2026-2028-ci illərdə isə illik orta hesabla 3,9 faiz səviyyəsində proqnozlaşdırılıb. Makroiqtisadi sabitliyin qorunması məqsədilə milli valyutanın mübadilə məzənnəsinin sabitliyi - manatın ABŞ dollarına qarşı məzənnəsinin **1,7 manat** səviyyəsində qalması dəstəklənəcək.

İqtisadi aktivliyin yüksəlməsi ilə əlaqədar əhalinin gəlirlərinin real artım tempi bu il 3,5 faiz, 2026-2028-ci illərdə isə orta illik 3,6 faiz proqnozlaşdırılır. Gəlirlərin artımına uyğun olaraq əhalinin xərclərinin real artım tempi növbəti ildə 3,4 faiz, 2026-2028-ci illərdə isə orta illik 3,6 faiz səviyyəsində proqnozlaşdırılır.

2026-2028-ci illərdə orta illik 3 faiz real artımın olacağı, o cümlədən qeyri-neft-qaz sektoru üzrə əsas kapitala investisiyaların 2026-2028-ci illərdə orta illik 3,7 faiz artacağı proqnozlaşdırılır.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkə iqtisadiyyatının inkişaf perspektivlərinin reallaşdırılması, işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası və inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlər həyata keçiriləcəkdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturların yenidən qurulması, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi nəticəsində bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası iqtisadiyyatın bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaradacaqdır. Həmçinin, həmin ərazilərdə uzun illər sonra kommunikasiya xətlərinin açılması iqtisadi cəhətdən müsbət tendensiyalara rəvac verməklə yanaşı, regionda sülhün və təhlükəsizliyin bərqərar olmasına xidmət edəcək.




İstisu zavodu, 2024-cü il

# DÖVLƏT BÜDCƏSİ ÜÇÜN ÇAĞIRIŞLAR

2025-ci və sonrakı üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. 2021-2023-cü illər üzrə hazırlanmış büdcə çərçivəsi sənədlərində əks olunan çağırışların əksəriyyəti 2025-2028-ci illərdə öz aktuallığını saxlayıb.

## 2025-2028-ci illər üçün aktual olan çağırışlar

**XÜSUSƏN AKTUALDIR**

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası

**XÜSUSƏN AKTUALDIR**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi

**XÜSUSƏN AKTUALDIR**

Regional və qlobal geosiyasi gərginlik

**XÜSUSƏN AKTUALDIR**

Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi

**AKTUALDIR**

Neft gəlirlərinin azalması

**AKTUALDIR**

Qeyri-neft sektorundan əldə olunan gəlirlərin ümumi büdcə gəlirlərində payının artırılması

**QİSMƏN AKTUALDIR**

Qlobal miqyasda tənəzzül və böhran meyilləri

**QİSMƏN AKTUALDIR**

Əsas ticarət tərəfdaşı olan ölkələrdə milli valyutaların dəyərsizləşməsi

**QİSMƏN AKTUALDIR**

İnflyasiya təzyiqləri və ərzaq böhranı

**QİSMƏN AKTUALDIR**

Pensiya sisteminin dayanıqlığı

**AKTUALDIR**

Xərclərin artımının iqtisadi artım göstəriciləri və dayanıqlı gəlir mənbələri ilə uzlaşdırılması

**AKTUALLIĞINI İTİRİB**

COVID-19 pandemiyası

# 2025-Cİ İLİN İCMAL BÜDCƏSİ

**İCMAL BÜDCƏ**

"Büdcə sistemi haqqında" Qanuna əsasən, dövlət büdcəsinin, Naxçıvan MR-nın büdcəsinin və büdcədən kənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirir.

**GƏLİRLƏR**

**43 milyard 950,5 milyon manat**

Bu, 2024-cü illə müqayisədə 435,5 milyon manat və ya 1 faiz çoxdur

**XƏRCLƏR**

**47 milyard 629,4 milyon manat**

Bu, 2024-cü illə müqayisədə 2 milyard 2,6 milyon manat və ya 4,4 faiz çoxdur.

**KƏSİR**

**3 milyard 678,9 milyon manat**

Bu, 2024-cü illə müqayisədə 1 milyard 567,1 milyon manat və ya 74,2 faiz çoxdur.

## İcmal büdcənin tərkib hissələri

**DÖVLƏT BÜDCƏSİ**

Dövlət büdcəsinin 2025-ci il üçün gəlirləri **38 milyard 356 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **1 milyard 968 milyon manat** və ya 5,4 faiz çoxdur.

Dövlət büdcəsinin 2025-ci il üçün xərcləri **41 milyard 407,6 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **1 milyard 665,3 milyon manat** və ya 4,2 faiz çoxdur.

**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİ**

Naxçıvan Muxtar Respublikasının 2025-ci il üçün büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla **505,2 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə 34,1 milyon manat və ya 6,3 faiz azdır.

## DÖVLƏT NEFT FONDU

Dövlət Neft Fondunun 2025-ci il üçün büdcəsinin gəlirləri **14 milyard 452,5 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **343,3 milyon manat** və ya 2,4 faiz çoxdur.

Dövlət Neft Fondunun 2025-ci il üçün büdcəsinin xərcləri **14 milyard 596,5 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **1 milyard 729,8 manat** və ya 13,4 faiz çoxdur.

## İŞSİZLİKDƏN SIĞORTA FONDU

İşsizlikdən Sığorta Fondunun 2025-ci il üçün büdcəsinin gəlirləri **206,4 milyon manat** nəzərdə tutulur. Bu, 2024-ci illə müqayisədə 31,6 milyon manat və ya 15,3 faiz azdır.

İşsizlikdən Sığorta Fondunun 2025-ci il üçün büdcəsinin xərcləri **260,7 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **22,7 milyon manat** və ya 9,5 faiz çoxdur.

## İCBARİ TİBBİ SIĞORTA FONDU

İcbari Tibbi Sığorta Fondunun 2025-ci il üçün büdcəsinin gəlirləri **2 milyard 571,7 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **278,6 milyon manat** və ya 9,8 faiz azdır.

İcbari Tibbi Sığorta Fondunun 2025-ci il üçün büdcəsinin xərcləri **2 milyard 941,7 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **91,4 milyon manat** və ya 3,2 faiz çoxdur.

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

Dövlət Sosial Müdafiəsi Fondunun 2025-ci il üçün büdcəsinin gəlirləri **7 milyard 617,4 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **667,5 milyon manat** və ya 9,6 faiz çoxdur

Dövlət Sosial Müdafiəsi Fondunun 2025-ci il üçün büdcəsinin xərcləri **7 milyard 676,4 milyon manat** nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə **726,5 milyon manat** və ya 10,5 faiz çoxdur.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait **1 milyard 600 milyon manat** təşkil edəcək.

# 2025-Cİ İL ÜÇÜN
# BÜDCƏ-VERGİ
# SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ




2025-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək tədbirlərin əsas istiqamətləri ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etməkdir. Bu tədbirlər çərçivəsində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi və ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması planlaşdırılır.

Qeyd edilən sahələrdə həyata keçiriləcək əsas prioritet istiqamətlər aşağıdakılardır:

### I. İnvestisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması:

- uzunmüddətli investisiya mühitinin formalaşdırılması və dövlət-özəl tərəfdaşlığının dəstəklənməsi, investorların strateji sahələrə yatırımının stimullaşdırılması məqsədilə **dövlət-özəl tərəfdaşlığı çərçivəsində vergi təşviqlərinin verilməsi;**
- 2019-cu ildən neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərinə münasibətdə tətbiq olunan güzəştli dövr növbəti ilin sonunda tamam olduğu üçün bu sahədə **vergi yükünün optimallaşdırılması məqsədilə təkliflərin hazırlanması;**
- real sahibkarlıqla məşğul olan şəxslərin fəaliyyətinin dəstəklənməsi, eləcə də azgəlirli vergi ödəyicilərinin vergi yükünün optimallaşdırılması məqsədilə bəzi **xidmət sahələri üzrə mikrosahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin** tətbiq edilməsi;
- yerli avtomobil sənayesinin canlanması və iqtisadiyyata əlavə investisiyaların cəlb olunması məqsədilə ölkədə istehsal olunan **minik avtomobillərinin və avtobusların satışı və bu sahə üçün ehtiyat hissələrinin idxalı üzrə güzəştlərin müəyyən edilməsi;**
- tibb turizminin inkişafı və ölkəyə valyuta cəlb olunmasının stimullaşdırılması məqsədilə **əcnəbi şəxslərə göstərilən tibbi xidmətlərə "ƏDV tax-free rejimi"nin tətbiqi;**

- **idxal olunan xammal və materialların** struktur təhlili və gömrük rüsumlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;

- əhalinin **teatra, kinoya, muzeyə və simfonik orkestrin konsert**lərinə marağının artırılması və bu sahədə vergi yükünün azaldılması məqsədilə güzəştlərin tətbiqi.

## II. Vergi və gömrük inzibatçılığı mexanizminin təkmilləşdirilməsi:

- iqtisadi fəaliyyət sahələri üzrə **təmir və amortizasiya xərclərinin uçotu**nun aparılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;

- inzibati xərclərin azaldılması məqsədilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə vergi və digər icbari ödənişlərlə bağlı **sabit qəbzin xidmət mərkəzinə müraciət edilmədən elektron qaydada təqdim edilməsi;**

- fiziki şəxslərə tətbiq olunan **əmlak vergisinin ödənilmə mexanizminin təkmilləşdirilməsi** ilə bağlı təkliflərin hazırlanması;

- vergi və gömrük sahəsində **güzəşt və azadolma üzrə meyarların** müəyyən edilməsi;

- beynəlxalq təcrübə və Ümumdünya Gömrük Təşkilatının tövsiyələri nəzərə alınmaqla, **gömrük qanunvericiliyinin təkmilləşdirilməsi** istiqamətində təkliflərin hazırlanması.

## III. Dövlət rüsumlarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi:

- "Dövlət rüsumlarının elektron idarəedilməsi (e-rüsum)" informasiya sisteminin yaradılması yolu ilə dövlət büdcəsinə dövlət rüsumu üzrə daxilolmaların izlənilməsi, bu sahədə proqnozlaşdırmanın operativliyinin, səmərəliliyinin və keyfiyyətinin artırılması, artıq ödənilmiş və ya düzgün tutulmamış dövlət rüsumunun qaytarılmasında vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət rüsumu üzrə dövlət büdcəsinə hesablanmış vəsaitlərin təyinatı üzrə köçürülməsinə nəzarətin təkmilləşdirilməsi və bu sahədə uçotun təşkilində rəqəmsallaşmanın təmin edilməsi.



# 2025-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ NƏ VƏD EDİR?

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2025-ci il yanvarın 1-dən minimum aylıq əmək haqqı təqribən 16 faiz artırılaraq **400 manat,** əmək pensiyalarının minimum həddi 14,3 faiz artırılaraq **320 manat** məbləğində müəyyənləşdirilib. Eyni zamanda sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması nəzərdə tutulub. 2025-ci ilin dövlət büdcəsində qeyd olunan məqsədlər üçün müvafiq məbləğdə vəsait proqnozlaşdırılıb.

Əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi və sosial təminat xərcləri üçün dövlət büdcəsindən **4 milyard 751,7 milyon manat** vəsait ayrılacaq.

Ünvanlı dövlət sosial yardım üçün **457 milyon manat**, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün **311 milyon manat** vəsait ayrılacaq.

Valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, ölkənin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının (21,4 min tələbə) ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün dövlət büdcəsindən **41 milyon manat** vəsait ayrılacaq.

Növbəti tədris ili üçün dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsilalanların sayının təqribən 9 min 406 nəfər artırılaraq 149 min 215 nəfərə, təqaüd alan tələbələrin sayı isə 8 min 934 nəfər artırılaraq 120 min 384 nəfərə çatdırılacaq.

Müvafiq tədris illərində 5 yaşlı 88 min nəfər uşağın məktəbəhazırlıq təhsili ilə əhatə olunması məqsədilə dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının fəaliyyətinə **38 milyon manat** xərclənəcək.

Xüsusi təhsilə cəlb olunan 12 min 985 nəfərin valideynlərinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün aylıq müavinətin ödənilməsinə **8 milyon manat** ayrılacaq.

Pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrini bitirmiş 9,9 min nəfərdən çox gənc mütəxəssisin kənd rayonlarındakı ümumtəhsil müəssisələrinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədilə aylıq əməkhaqqına əlavənin ödənilməsinə **13 milyon manat** yönəldiləcək.

Adambaşına düşən icbari tibbi sığorta haqqının 2020-ci ildən tətbiq olunmuş **90 manat**lıq həddi 2025-ci ildə **124,1 manat**a çatdırılacaq.

2025-ci ildən teatr, kino, muzey və simfonik musiqi kollektivləri və müəssisələrinin mənfəəti 90 faiz həcmində vergilərdən azad ediləcək, teatr, kino, muzey ekskursiyaları, habelə simfonik musiqi orkestrlərinə satılan biletlərin qiymətinə tətbiq olunan əlavə dəyər vergisinin 50 faizi isə vətəndaşlara geri qaytarılacaq.

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və güzəştli şərtlərlə mənzil əldə edilməsinə dəstək vermək üçün ipoteka layihələrinin maliyyələşdirilməsi məqsədilə İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması üçün **100 milyon manat** vəsait ayrılacaq.

Sahibkarlığa və özəl investisiyalara əlavə təşviq olaraq 2025-ci ildən başlayaraq dövlət-özəl tərəfdaşlığı çərçivəsində uzunmüddətli investisiya layihələrinə əlavə vergi güzəştlərinin, bəzi xidmət sahələri üzrə mikrosahibkarlara 75 faiz həcmdə vergi güzəştlərinin verilməsi nəzərdə tutulur.

Ölkənin ərzaq təhlükəsizliyinin təminatı üçün dövlət büdcəsindən **528 milyon manat** ayrılacaq. Bu vəsaitin bir hissəsi kənd təsərrüfatı məhsullarının istehsalının təşviqi məqsədilə fermerlərə subsidiya şəklində veriləcək.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi və zəruri infrastrukturun qurulması üçün dövlət büdcəsindən **4 milyard manat** məbləğində vəsait nəzərdə tutulub.

20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması üçün dövlət büdcəsindən **35 milyon manat** ayrılacaq.

# 2025-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ

**GƏLİRLƏR**

**38 milyard 356 milyon manat**
Bu, 2024-cü illə müqayisədə 1 milyard 968 milyon manat və ya 5,4 faiz çoxdur. Dövlət büdcəsinin gəlirləri ÜDM-nin 29.7%-i həcmində olacaq.

**XƏRCLƏR**

**41 milyard 407,6 milyon manat**
Bu, 2024-cü illə müqayisədə 1 milyard 665,3 milyon manat və ya 4,2 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri ÜDM-nin 32.1%-i həcmində olacaq.

**KƏSİR**

**3 milyard 51,6 milyon manat**
Bu, 2024-cü illə müqayisədə 302,7 milyon manat və ya 9 faiz azdır. Dövlət büdcəsinin kəsiri ÜDM-nin 2,4%-i həcmində olacaq.

## Dövlət büdcəsinin gəlirləri

Dövlət büdcəsi gəlirlərinin **15 milyard 500 milyon manatı** Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, **14 milyard 481 milyon manatı** Dövlət Neft Fondundan transfertin, **6 milyard 600 milyon manatı** Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, **880 milyon manatı** büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, **895 milyon manatı** digər gəlirlərin payına düşür.






# BÜDCƏ GƏLİRLƏRİNİN STRUKTURU

2025-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin **18 milyard 773 milyon manatı** neft-qaz sektorunun, **19 milyard 583 milyon manatı** qeyri-neft-qaz sektorunun payına düşür.




2024-cü il dövlət büdcəsinin proqnoz göstəricisi ilə müqayisədə neft-qaz sektorunun gəlirləri **1 milyard 4 milyon manat** və ya 5,7 faiz, qeyri-neft-qaz sektorunun gəlirləri isə **964 milyon manat** və ya 5,2 faiz çoxdur.

## Neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin tərkibi

**Neft-qaz sektoru üzrə** dövlət büdcəsinin gəlirləri Dövlət Neft Fondundan transfert, vergi orqanlarının xətti ilə neft-qaz sektorundan daxilolmalar və SOCAR üzrə dividend ödənişləri hesabına formalaşır. Bu vəsaitin **14 milyard 481 milyon manatı** Dövlət Neft Fondundan transfertin, **3 milyard 830 milyon manatı** vergi orqanlarının xətti ilə neft-qaz sektorundan daxilolmaların, **462 milyon manatı** isə SOCAR üzrə dividend ödənişinin payına düşür.




Vergi orqanlarının xətti ilə neft-qaz sektoru üzrə daxilolmaların **1 milyard 880 milyon manatı** SOCAR-ın büdcə ödənişlərinin, **450 milyon manatı** neft-qaz sahəsində fəaliyyət göstərən Hasilatın Pay Bölgüsü sazişləri çərçivəsində Azəri-Çıraq-Günəşli layihəsi üzrə mənfəət vergisinin, **1 milyard 500 milyon manatı** isə Şahdəniz qaz-kondensat layihəsi üzrə isə mənfəət vergisi payına düşür.

# Qeyri-neft-qaz sektoru üzrə gəlirlərin bölgüsü

Qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin **11 milyard 670 milyon manatını** vergi orqanlarının xətti ilə daxilolmalar, **6 milyard 600 milyon manatını** gömrük orqanlarının xətti ilə daxilolmalar, **880 milyon manatını** büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, **433 milyon manatını** sair gəlirlər təşkil edir.




2025-ci ildə vergi və gömrük orqanlarının xətti ilə dövlət büdcəsinin qeyri-neft-qaz gəlirlərinin **87,5 faizini və ya 15 milyard 983 milyon manatını** vergi gəlirləri, 12,5 faizini və ya **2 milyard 287 milyon manatını** qeyri-vergi gəlirləri təşkil edir.

## Vergi orqanlarının xətti ilə daxilolmalar

Dövlət Vergi Xidmətinin xətti ilə 2025-ci il üzrə dövlət büdcəsinə proqnozlaşdırılan daxilolmaların 75,3 faizi və ya **11 milyard 670 milyon manatı** qeyri-neft-qaz sektorunun, 24,7 faizi və ya **3 milyard 830 milyon manatı** neft-qaz sektorunun payına düşür.






Dövlət Vergi Xidmətinin xətti ilə 2025-ci il üzrə qeyri-neft-qaz sektoru üzrə gəlirlərin qeyri-neft ÜDM-də nisbəti 12,7 faiz proqnozlaşdırılıb.

Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:




- Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar – **1 milyard 989 milyon manat;**
- Hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalar – **6 milyard 344 milyon manat;**
- Əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar – **3 milyard 758,2 milyon manat;**
- Sadələşdirilmiş vergi üzrə daxilolmalar - **405 milyon manat;**
- Aksizlər üzrə daxilolmalar – **1 milyard 655,7 milyon manat;**
- Hüquqi şəxslərin əmlak vergisi üzrə daxilolmalar - **392,6 milyon manat**;
- Mədən vergisi üzrə daxilolmalar - **160 milyon manat;**
- Hüquqi şəxslərin torpaq vergisi üzrə daxilolmalar - **46,7 milyon manat;**
- Dövlət rüsumu üzrə daxilolmalar - **390 milyon manat;**
- Yol vergisi üzrə daxilolmalar - **105,8 milyon manat;**
- ölkədə istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) respublika daxili müəssisə topdansatış qiyməti arasındakı fərqdən büdcəyə yığımlar - **166 milyon manat;**
- Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar - **12 milyon manat;**
- Digər daxilolmala -**75 milyon manat.**



## Dövlət Gömrük orqanlarının xətti ilə daxilolmalar

Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar **6 milyard 600 milyon manat** məbləğində nəzərdə tutulur ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə **165 milyon manat** və ya 2,6 faiz çoxdur. Komitənin xətti ilə 2025-ci il üzrə daxilolmaların idxalda xüsusi çəkisi 21,2 faiz proqnozlaşdırılır.

2025-ci ildə Dövlət Gömrük Komitəsinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:




- İdxal olunan mallara əlavə dəyər vergisi üzrə daxilolmalar-**4 milyard 568 milyon manat;**
- İdxal olunan mallara aksizlər üzrə daxilolmalar - **185 milyon manat;**
- Gömrük rüsumları üzrə daxilolmalar – **1 milyard 810 milyon manat;**
- Yol vergisi üzrə daxilolmalar - **37 milyon manat.**

## Büdcə təşkilatlarının ödənişli xidmətləri

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən dövlət büdcəsinə **880 milyon manat** vəsaitin daxil olacağı nəzərdə tutulur ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə **49 milyon manat** və ya 5,9 faiz çoxdur.

## Sair gəlirlər

2025-ci ilin dövlət büdcəsinin sair gəlirləri aşağıdakı mənbələr üzrə formalaşacaq:




- Dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən icarə haqqı **– 34 milyon manat;**
- Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə daxilolmalar - **612,2 milyon manat;**
- Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar - **2 milyon manat;**
- Məqsədli büdcə fondları üzrə daxilolmalar - **61,2 milyon manat;**
- Yığımlar və inzibati xətalara görə tətbiq edilmiş cərimələrdən dövlət büdcəsinə çatan hissə üzrə daxilolmalar - **169,5 milyon manat;**
- Digər daxilolmalar – **16,1 milyon manat.**

# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

2025-ci il üzrə dövlət büdcəsinin xərcləri **41 milyard 407,6 milyon manat** proqnozlaşdırılır ki, bu da 2024-cü ilin təsdiq olunmuş dövlət büdcəsi xərcləri ilə müqayisədə **1 milyard 665,3 milyon manat** və yaxud 4,2 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 32,1 faiz olacaq.

Dövlət büdcəsinin xərcləri aşağıdakı 3 istiqamətdə qruplaşdırılıb:

**1. Cari xərclər – 24 milyard 753,9 milyon manat;**
Cari xərclər hər il təkrarlanan xərclərdir. Misal üçün: əmək haqqı xərcləri və əmək haqqının ödənilməsi ilə bağlı hesablanan ayırmalar, pensiya və başqa sosial müavinətlər və ödənişlər, təşkilatın fəaliyyətinin təmin edilməsi üçün kommunal xidmət xərclərinin ödənilməsi, malların satın alınması və digər xərclər.

**2. Əsaslı xərclər – 14 milyard 254,1 milyon manat;**
Əsaslı xərclər xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər, işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası, dövlət əsaslı vəsait qoyuluşu (investisiya) və digər tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi ilə bağlı xərcləri əhatə edir.

**3. Dövlət borcuna xidmətlə bağlı xərclər - 2 milyard 399,6 milyon manat.**






# BÜDCƏ XƏRCLƏRİNİN İQTİSADİ TƏSNİFAT ÜZRƏ BÖLGÜSÜ



2025-ci il dövlət büdcəsinin xərcləri iqtisadi təsnifat üzrə aşağıdakı istiqamətləri əhatə edir:

- Əməyin ödənişi xərcləri – **9 milyard 722,9 milyon manat;**
- Malların (işlərin və xidmətlərin) satın alınması – **5 milyard 509,4 milyon manat;**
- Faizlər üzrə ödənişlər – **1 milyard 300 milyon manat;**
- Subsidiyaların ödənilməsi – **1 milyard 337,3 milyon manat;**
- Qrantlar və digər ödənişlər – **4 milyard 770,1 milyon manat;**
- Sosial ödənişlər – **3 milyard 364,6 milyon manat;**
- Qeyri-maliyyə aktivlərinin alınması – **13 milyard 951 milyon manat;**
- Maliyyə aktivləri üzrə əməliyyatlar – **303,1 milyon manat;**
- Öhdəliklər üzrə əməliyyatlar – **1098,2 milyon manat;**
- Dövlət icbari şəxsi sığorta xərcləri – **51 milyon manat.**






## Sosialyönlü xərclər

2025-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri **16 milyard 932,1 milyon manat** məbləğində proqnozlaşdırılıb. Bu, 2024-cü illə müqayisədə **1 milyard 392,4 milyon manat** və ya 9 faiz çoxdur .
Sosialyönlü xərclərin  dövlət büdcəsi xərclərində payı 40.9% olacaq.

> **Sosialyönümlü xərclərə əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması daxildir. Bu xərclərə həmçinin icbari tibbi sığorta üzrə xərclər, kommunal xərclər, 20  il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və onlara pul kompensasiyasının verilməsi ilə bağlı xərclər də daxildir.**



## Dövlət büdcəsi xərclərində sosialyönlü xərclərin məbləği və xüsusi çəkisi

- Əməyin ödənişi fondu - **9 milyard 722,9  milyon manat;**
- Ərzaq məhsullarının alınması - **504,9 milyon manat;**
- Təqaüdlər və sosial müavinətlər - **4 milyard 964,6 milyon manat;**
- Dərman, sarğı ləvazimatları və materialların alınması - **151 milyon manat;**
- İcbari tibbi sığorta üzrə xərclər -**1 milyard 416,4 milyon manat;**
- Digər sosial xərclər - **35 milyon manat;**
- Sosial dəstək tədbirləri - **86.3 milyon manat;**
- Dövlət icbari şəxsi sığorta xəcləri - **51 milyon manat.**



# TƏHSİL XƏRCLƏRİ

Təhsil sektoruna dövlət büdcəsindən **4 milyard 937,3 milyon manat** vəsait ayrılıb. Bu, 2024-cü illə müqayisədə **386,9 milyon manat** və ya 8,5 faiz çoxdur. Təhsil xərclərinin ÜDM-də payı 3,8 faiz, dövlət büdcəsi xərclərinin tərkibində payı isə 11,9 faiz təşkil edəcək.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Ümumi təhsil xərcləri – **2 milyard 347,5 milyon manat;**
- Ali təhsil və dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi - **750,7 milyon manat;**
- Məktəbəqədər təhsil xərcləri – **467,4 milyon manat;**
- Orta ixtisas təhsili xərcləri - **104,9 milyon manat;**
- Peşə təhsili xərcləri - **82,2 milyon manat;**
- Əlavə təhsil və tətbiqi tədqiqatlar - **28,3 milyon manat;**
- Təhsil sahəsində digər müəssisə və tədbirlərlə bağlı xərclər – **1 milyard 70,6 milyon manat;**
- Məktəbdənkənar təhsil müəssisələrinin xərcləri- **85,7 milyon manat.**






# Təhsil xərclərinin tərkibində tədbir və proqramların maliyyələşməsi

Azərbaycan Respublikasında təhsil sisteminin daha da təkmilləşdirilməsini, inkişafını, müasir səviyyədə qurulmasını və iqtisadi inkişafın mühüm amilinə çevrilməsini, habelə biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını təmin etmək məqsədilə **"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"**nda və **"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"**nda nəzərdə tutulmuş islahatların və tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi məqsədilə 2025-ci ilin dövlət büdcəsində müvafiq məbləğdə vəsait proqnozlaşdırılıb.

**"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"**nın Tədbirlər Planında təhsil sahəsi üzrə aşağıdakı istiqamətlər müəyyən edib:

- erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması;
- ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi;
- əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması;
- ali təhsildə əlçatanlığın və keyfiyyətin artırılması, beynəlxalq rəqabətliliyin təmin edilməsi;
- elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi;
- səriştələrin davamlı inkişafına əsaslanan "ömürboyu təhsil" sisteminin gücləndirilməsi;
- erkən yaşlardan rəqəmsal səriştələrin artırılması, informasiya və kommunikasiya texnologiyalarının təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi;
- dövlət qulluğunda və iqtisadi idarəetmədə effektivliyin artırılması;
- innovasiya ekosisteminin inkişafı.




Qarabağ Universiteti, 2024-cü il

Ümumilikdə 9 fəaliyyət istiqaməti üzrə 19 tədbirin 2025-ci ildə həyata keçirilməsi xərcləri **333,4 milyon manat** vəsait proqnozlaşdırılıb. Həmin tədbirlərdən davam edən 17 tədbir üzrə **320,3 milyon manat,** yeni 2 tədbir üzrə isə **13,1 milyon manat** vəsait nəzərdə tutulur.

Strategiyaya əsasən, məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri (icma əsaslı məktəbəqədər təhsil, valideyn-dövlət-özəl əməkdaşlığı və s.) əsasında əhatəliliyin artırılması məqsədilə növbəti ildə **19,2 milyon manat** vəsait nəzərdə tutulub.

“Dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1815 nömrəli Fərmanının icrası olaraq dövlət ümumi təhsil müəssisələrinin direktor, direktor müavinlərinin və sertifikatlaşdırılmadan keçən təhsilverənlərin aylıq vəzifə maaşlarına əlavələr müəyyən edilib. Belə ki, 2022-2026-cı illər ərzində 137 min nəfər müəllim heyətin sertifikatlaşma proqramında iştirakı və uğur qazanan heyətin diferensial əmək haqqı sisteminə cəlb olunması təmin olunacaqdır. Bu məqsəd üçün 2025-ci ilin dövlət büdcəsində **154,4 milyon manat** vəsait nəzərdə tutulub.

Növbəti ildə təqribən 9 min nəfər təhsilalanı əhatə edəcək uğurlu peşə təhsili müəssisələrinin mərhələli şəkildə adambaşı maliyyələşmə sisteminə keçirilməsi ilə bağlı xərclərin maliyyə təminatı üçün **24,7 milyon manat** vəsait ayrılacaq.

2024/2025-ci tədris ilindən başlayaraq Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı proqramı üzrə 100 təhsil qrantının növbəti ildə ödənilməsi məqsədilə **2,2 milyon manat** vəsait nəzərdə tutulub.

2025-ci ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsilalanların sayının təqribən 9406 nəfər artaraq 149215 nəfər, təqaüd alanların sayının isə 8934 nəfər artaraq 120384 nəfər olacağı gözlənilir.

Növbəti ilin dövlət büdcəsində dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər üçün **568,2 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2024-cü illə müqayisədə **100,1 milyon manat** çoxdur. Həmin vəsaitin **391 milyon manatını** təhsil xərcləri, **170,3 milyon manat**ını təqaüd xərcləri, **6,9 milyon manat**ını isə təhsil sahəsində digər tədbirlər üzrə xərclər təşkil edəcək.

Dövlət sifarişi və dövlət hesabına kadr hazırlığının maliyyələşdirilməsi üçün növbəti ilə proqnozlaşdırılan vəsaitin **40,6 milyon manat**ı güzəştli kateqoriyaya aid 21,4 min nəfər tələbənin müvafiq olaraq təhsil və təqaüd xərcləri üçün nəzərdə tutulub.



Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə təhsil tələbə kreditinin verilməsi üçün növbəti ilin dövlət büdcəsində **8 milyon manat** vəsait nəzərdə tutulub. 2020-2024-cü illərdə ayrılmış vəsaitlər də nəzərə alındıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi **126 milyon manat** təşkil edəcək.

Müvafiq tədris illərində 5 yaşlı 88 min nəfər uşağın məktəbəhazırlıq təhsili ilə əhatə olunması məqsədilə dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının fəaliyyəti ilə bağlı xərclərə **3 milyon manat** ayrılacaq.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində oxuyan şagirdlərin 2025/2026-cı tədris ilində 300-dən çox adda təqribən 7,7 milyon nüsxə pulsuz dərsliklərlə təmin olunması və metodiki vəsaitlərin alınmasına **21,5 milyon manat** xərclənəcək.

Xüsusi təhsilə cəlb olunan 12985 nəfərin valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün aylıq müavinətin ödənilməsinə **8 milyon manat** veriləcək.

**Qeyd:** **Güzəştli kateqoriyaya aid edilmiş şəxslər:**

- Keçmiş məcburi köçkün, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş tələbələr;
- Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin övladları olan tələbələr;
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər;
- Şəhid ailəsinin üzvi olan tələbələr;
- 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər;
- Köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-dən qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar;
- Əlilliyi olan şəxslər;
- Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər.

Pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrini bitirmiş 9,9 min nəfərdən çox gənc mütəxəssisin kənd rayonlarındakı ümumtəhsil müəssisələrinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədilə onların yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə birdəfəlik xərcin, kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqı üzrə verilən kompensasiyanın və aylıq əməkhaqqına əlavənin ödənilməsi üçün **12,6 milyon manat** nəzərdə tutulub.

Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması ilə bağlı xərclər üçün **38,3 milyon manat** vəsait proqnozlaşdırılıb.

Bəzi ali təhsil müəssisələri xərclərinin müəyyən hissəsinin qarşılanması üçün 2025-ci ilin dövlət büdcəsində **95,1 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin aparılması, orta ixtisas təhsil müəssisələrinə və ali təhsilin bakalavriat səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanların keçirilməsinə **19,3 milyon manat** ayrılacaq.

# ELM XƏRCLƏRİ

2025-ci il dövlət büdcəsində elmin maliyyələşdirilməsi üçün **239,2 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2024-cü illə müqayisədə **3,1 milyon manat** və ya 1,3 faiz çoxdur.

Elm xərcləri üçün ayrılmış vəsaitin **185,7 milyon manat**ı fundamental elm xərclərinin, **53,5 milyon manat**ı ümumdövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar ilə bağlı xərclərin payına düşəcək.

Elm xərclərinin xərc istiqamətləri aşağıdakı kimidir:

- Azərbaycan Milli Elmlər Akademiyası **- 53,5 milyon manat;**
- Elm və Təhsil Nazirliyi **- 81,1 milyon manat;**
- Kənd Təsərrüfatı Nazirliyi **- 18,6 milyon manat;**
- Müdafiə Sənayesi Nazirliyi **- 7 milyon manat;**
- Ədliyyə Nazirliyi **- 9,2 milyon manat;**
- Mədəniyyət Nazirliyi **- 6,5 milyon manat;**
- Milli Arxiv İdarəsi **- 9,5 milyon manat;**
- Elm sahəsində digər müəssisə və tədbirlər **- 53,8 milyon manat.**






2025-ci ilin dövlət büdcəsində "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın növbəti ildə maliyyə təminatı üçün **2,5 milyon manat** vəsait proqnozlaşdırılıb.

2025-ci ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi üçün **3 milyon manat** vəsait proqnozlaşdırılıb. Bu vəsait hesabına da Mərkəzin saxlanılması və Mərkəz tərəfindən Azərbaycan Milli Ensiklopediyasının növbəti cildlərinin nəşri ilə bağlı işlərin həyata keçirilməsi nəzərdə tutulub.

Kənd Təsərrüfatı Nazirliyinin elmi tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında orijinal, superelit və elit toxumlarının istehsalı ilə bağlı 2025-ci ilin dövlət büdcəsi layihəsində **1,7 milyon manat** vəsait proqnozlaşdırılıb.

Elmin inkişafı, o cümlədən elmi tədqiqat proqramları və layihələrinin ünvanlı olaraq qrant şəklində maliyyələşdirilməsinin xüsusi əhəmiyyətini nəzərə alaraq, bu istiqamətdə dövlət sifarişinin həyata keçirilməsi məqsədilə növbəti ilin dövlət büdcəsində "Azərbaycan Elm Fondu" publik hüquqi şəxs üçün **3,1 milyon manat** vəsait proqnozlaşdırılıb. Bütövlükdə "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin resurs zərfi **15,8 milyon manat**a çatacaq.

2025-ci ilin dövlət büdcəsində elm xərcləri köməkçi bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **4,1 milyon manat** təşkil edəcək.

# SƏHİYYƏ XƏRCLƏRİ

2025-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün **1 milyard 993,6 milyon manat** vəsait nəzərdə tutulub ki, bu da 2024-cü illə müqayisədə **127,2 milyon manat** və ya 6,8 faiz çoxdur. Səhiyyə xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,8 faiz olacaq.

Səhiyyə xərclərinin bölgüsü aşağıdakı kimidir:

- Əhalinin dövlət vəsaiti hesabına icbari tibbi sığortalanması üzrə xərclər **– 1 milyard 416,4 milyon manat;**
- Poliklinika və ambulatoriyaların saxlanılması xərcləri **- 18,1 milyon manat;**
- Xəstəxanaların saxlanılması xərcləri **- 249,3 milyon manat;**
- Səhiyyə sahəsində tətbiqi tədqiqatlar xərcləri **- 8 milyon manat;**
- Səhiyyə sahəsində digər xidmətlər **- 301,8 milyon manat.**






Səhiyyə xərcləri üçün ayrılmış vəsait əhalinin dövlət vəsaiti hesabına icbari tibbi sığortalanması və müvafiq dövlət proqram və tədbirləri üzrə xərclərə yönəldiləcəkdir. 2025-ci ilin dövlət büdcəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ayrılması nəzərdə tutulmuş **1 milyard 416,4 milyon manat** vəsaitin **1 milyard 266,6 milyon manatı** dövlətin əhalinin icbari tibbi sığortalanması payına düşən öhdəliyidir. Bu xərc əhalinin sayının ehtimal olunan artımı və ölkə üzrə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun indeksləşdirilən sığorta haqlarına uyğun olaraq artırılıb. Bütövlükdə 2020-ci ildən tətbiq olunmuş adambaşına düşən icbari tibbi sığorta haqqı 2025-ci ildə **90 manatdan 124,1 manat**a çatdırılacaq.

2025-ci ildə Səhiyyə Nazirliyinə ümumilikdə **321,6 milyon manat** vəsait ayrılacaq. Bu vəsaitdən ümumi təyinatlı və xüsusiləşdirilmiş xəstəxanaların, tibb mərkəzlərinin saxlanılması, habelə ümumi təyinatlı tibbi xidmətin göstərilməsinə **82,5 milyon manat,** bərpa-müalicə sanatoriyalarının fəaliyyətinin təmin edilməsinə **10,2 milyon manat**, səhiyyə sahəsində tədqiqat fəaliyyəti üzrə işləri həyata keçirən təşkilatların saxlanılmasına **5,7 milyon manat**, digər xərclərə (məhkəmə-tibbi, tibbi kriminalistik, tibbi bioloji, məhkəmə-kimyəvi ekspertizalarını, qanköçürmə və s.) **170,7 milyon manat** yönəldiləcək. Sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması məqsədilə sanitar-epidemioloji tədbirlər üçün Nazirliyə **52,5 milyon manat** vəsait ayrılması proqnozlaşdırılıb.

Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti üçün qanunvericiliklə müəyyən edilən şəxslərin tibbi təminatı üçün **18,9 milyon manat** vəsait nəzərdə tutulub.

Onkoloji xəstəliyə tutulmuş şəxslərin müalicə və reabilitasiyasının həyata keçirilməsi, dərman preparatlarına olan tələbatın ödənilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə **60,4 milyon manat** vəsait ayrılacaq. Bu vəsaitin **58,9 milyon manatı** Milli Onkologiya Mərkəzinin, **1,5 milyon manatı** Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının payına düşəcək.

Azərbaycan Respublikasında ixtisaslaşdırılmış oftalmoloji xidmətlə təmin edilməsi, göz patologiyası ilə mübarizədə elmi-metodik cəhətdən əsaslandırılmış tədbirlərin işlənilməsi, tətbiqi və gücləndirilməsi, respublikada ixtisaslaşdırılmış oftalmoloji yardımın təşkili məqsədilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə **9,3 milyon manat** məbləğində vəsait ayrılacaq.

Gənclər və İdman Nazirliyinin tabeliyində olan Bakı, Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərinin tibbi bədən tərbiyəsi dispanserlərinin saxlanılması üçün **1,2 milyon manat** vəsait proqnozlaşdırılır.

Səhiyyə Nazirliyi tərəfindən bəzi layihələr, o cümlədən Nazirliyin müvafiq səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının tənzimlənməsi üçün 2025-ci ilin səhiyyə xərclərində **43 milyon manat** vəsait ayrılacaq.

2025-ci ildə qeyd olunan müəyyən səhiyyə tədbirləri üzrə nəzərdə tutulmuş **303,4 milyon manat** vəsaitin bölgüsü 37-ci səhifədəki kimidir:







# DÖVLƏT PROQRAMLARI VƏ TƏDBİRLƏRİ ÜZRƏ MALİYYƏLƏŞƏN XƏSTƏLİKLƏR

| | | |
|---|---|---|
| 1 | ŞƏKƏRLİ DİABET XƏSTƏLİYİ ÜZRƏ TƏDBİRLƏR | 65,9 (MİLYON MANAT) |
| 2 | ONKOLOJİ XƏSTƏLİKLƏR ÜZRƏ MÜBARİZƏ TƏDBİRLƏRİ | 57,5 (MİLYON MANAT) |
| 3 | XRONİKİ BÖYRƏK ÇATIŞMAZLIĞI ÜZRƏ MÜBARİZƏ TƏDBİRLƏR | 46,0 (MİLYON MANAT) |
| 4 | YOLUXUCU XƏSTƏLİKLƏRİN İMMUNOPROFİLAKTİKASINA DAİR TƏDBİRLƏR PROQRAMI | 28,8 (MİLYON MANAT) |
| 5 | HEMOFİLİYA XƏSTƏLİYİ ÜZRƏ MÜBARİZƏ TƏDBİRLƏRİ | 16,3 (MİLYON MANAT) |
| 6 | İNSAN İMMUNÇATIŞMAZLIĞI VİRUSU / QAZANILMIŞ İMMUNÇATIŞMAZLIĞI SİNDROMU (İİV/QİÇS) İLƏ MÜBARİZƏ TƏDBİRLƏRİ | 6,4 (MİLYON MANAT) |
| 7 | ANA VƏ UŞAQLARIN SAĞLAMLIĞININ YAXŞILAŞDIRILMASI TƏDBİRLƏRİ | 5,0 (MİLYON MANAT) |
| 8 | İXTİYOZ VƏ KƏPƏNƏK XƏSTƏLİYİNƏ QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ | 6,0 (MİLYON MANAT) |
| 9 | DAĞINIQ SKLEROZ XƏSTƏLİYİNİN MÜALİCƏSİ, PROFİLAKTİKASI VƏ ONUNLA MÜBARİZƏ TƏDBİRLƏRİ | 7,5 (MİLYON MANAT) |
| 10 | VƏRƏMLƏ MÜBARİZƏ TƏDBİRLƏRİ | 2,4 (MİLYON MANAT) |
| 11 | UŞAQLARDA KİSTOZ FİBROZ GENETİK XƏSTƏLİYİ İLƏ MÜBARİZƏ TƏDBİRLƏRİ | 0,6 (MİLYON MANAT) |
| 12 | QANIN BƏDXASSƏLİ VƏ İRSİ XƏSTƏLİKLƏRİ İLƏ MÜBARİZƏ VƏ TƏŞKİLİ TƏDBİRLƏRİ İLƏ BAĞLI XƏRCLƏR | 50,9 (MİLYON MANAT) |
| 13 | QANIN, QAN KOMPONENTLƏRİNİN DONORLUĞUNUN İNKİŞAFI, QAN XİDMƏTİNİN TƏŞKİLİ | 10,1 (MİLYON MANAT) |

**CƏMİ XƏRC: 303,4 (MİLYON MANAT)**

# SOSİAL MÜDAFİƏ VƏ SOSİAL TƏMİNAT XƏRCLƏRİ

2025-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün **4 milyard 751,7 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2024-cü illə müqayisədə **360,3 milyon manat** və ya 8,2 faiz çoxdur. Sosial müdafiə və sosial təminat xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 11,5 faiz, ÜDM-də xüsusi çəkisi isə 3,7 faiz təşkil edəcək.




Əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2025-ci ilin dövlət büdcəsində **2 milyard 600,2 milyon manat** vəsait nəzərdə tutulub.

2025-ci il üçün nəzərdə tutulmuş sosial müdafiə və sosial təminat xərclərindən əhalinin həssas təbəqələrinə yaşa, əlilliyə, ailə başçısının itirilməsinə və digər sosial müavinətlərin, müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin maliyyələşdirilməsi üçün **1 milyard 942,9 milyon manat**, ünvanlı dövlət sosial yardımların verilməsi üçün **457,3 milyon manat,** “Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı”nın icrası olaraq işsiz şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə haqqı ödənilən ictimai işlərlə bağlı xərclər üçün **200 milyon manat** vəsait proqnozlaşdırılıb.













Keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə 2025-ci ilin dövlət büdcəsində **311,2 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bundan keçmiş məcburi köçkün statusu olan və onlara bərabər tutulan şəxslərə (412600 nəfərə) vahid aylıq müavinətin verilməsi üçün **280,1 milyon manat,** keçmiş məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər tərəfindən istehlak edilən kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına qarşılanması üçün **19,3 milyon manat,** digər tədbirlər üzrə **11,8 milyon manat** vəsait nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə 2025-ci il dövlət büdcəsindən **1 milyard 600 milyon manat** vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə **368 milyon manat** və ya 29,9 faiz çoxdur. Bu vəsaitin Fondun xərclərinin tərkibində xüsusi çəkisi 20,8 faiz təşkil edəcəkdir.

Məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri ilə sosial, psixoloji və psixo-pedaqoji işin təşkili və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq və ailələrə dəstək mərkəzlərinin saxlanılması, eləcə də bir sıra dövlət proqramlarının icrasının təmin edilməsi xərcləri üçün 2025-ci ilin dövlət büdcəsində **7,4 milyon manat** vəsait nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi publik hüquqi şəxs tərəfindən həyata keçirilən tədbirlərin, o cümlədən çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi, xüsusi nəqliyyat vasitəsi almaq üçün tibbi göstərişləri olan əlillərə avtomobil alınması xərclərinin, eləcə də əlilliyi olan şəxslərə, xüsusi qayğıya ehtiyacı olan uşaqlara, həssas əhali qrupuna aid olan şəxslərə qeyri-hökumət təşkilatları tərəfindən sosial-reabilitasiya xidmətlərinin göstərilməsini nəzərdə tutan layihələrin və Agentliyin və onun yerli orqanlarının saxlanılması xərclərinin maliyyələşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi üçün **59,8 milyon manat** vəsait nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxs tərəfindən həyata keçirilən tədbirlərin, o cümlədən əlilliyi olan şəxslərin sağlamlığının mühafizəsi və tibbi bərpasının təşkili məqsədilə və Agentliyin və onun tabeliyində olan ixtisaslaşdırılmış mərkəzlərin, Ərazi Tibbi-Sosial Ekspert Komissiyalarının, Tibbi Qiymətləndirmə Komissiyalarının, reabilitasiya mərkəzlərinin, reabilitasiya pansionatlarının saxlanılması xərclərinin maliyyələşdirilməsi məqsədilə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi üçün **38,3 milyon manat** vəsait nəzərdə tutulub.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na müvafiq olaraq əhalinin yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin təşkili, inşa edilmiş evlərə ailələrin köçürülməsi məqsədilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə **13,7 milyon manat** və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə **15,1 milyon manat** vəsait proqnozlaşdırılıb.

Paralimpiya idman və Abilimpiya komandalarının təlim-məşq toplantılarının, həmçinin Xüsusi Olimpiya Komitəsinin idman komandalarının müxtəlif idman tədbirlərinin keçirilməsi və həmin idman komandalarının beynəlxalq yarışlarda iştirakı və beynəlxalq idman tədbirlərinə hazırlıq və digər təşkilati işlərinin maliyyə təminatı üçün **2,4 milyon manat** vəsait proqnozlaşdırılıb.

2025-ci ilin dövlət büdcəsində Elm və Təhsil Nazirliyinin tabeliyində olan uşaq və ailələrə dəstək mərkəzinin fəaliyyəti üçün **0,3 milyon manat** vəsait nəzərdə tutulub.



# MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, İNFORMASİYA, BƏDƏN TƏRBİYƏSİ...

2025-ci il dövlət büdcəsində mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla, **621,8 milyon manat** təşkil edəcəkdir ki, bu da 2024-cü illə müqayisədə **46,2 milyon manat** və ya 8 faiz çoxdur.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Mədəniyyət və incəsənət sahəsində fəaliyyət (kitabxanalar, muzeylər, qoruqlar, mədəniyyət sarayları, evləri, mərkəzləri, teatrlar, musiqi kollektivlərinin saxlanılması) - **234,6 milyon manatı**;
- Televiziya, radio və nəşriyyat xərcləri - **67,7 milyon manat;**
- Bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin maliyyələşdirilməsi - **80 milyon manat;**
- Yaradıcı ittifaqlar, cəmiyyətlər, siyasi partiyalar, diaspora və dini tədbirlərlə bağlı digər xərclər - **22,1 milyon manat;**
- Bu sahələrdə digər müəssisə və tədbirlərlə bağlı xərclərin maliyyələşdirilməsi - **217,4 milyon manat.**






“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər Planında mədəniyyət sahəsi üçün müəyyən edilmiş Mədəniyyət və Yaradıcı Sənayelərin dinamik inkişafının təmin edilməsi, mədəni və yaradıcı cəmiyyətin inkişafının təşviq edilməsi, ümumilikdə 2 fəaliyyət istiqaməti üzrə 7 tədbirin 2025-ci ildə həyata keçirilməsi ilə bağlı xərclər **8,9 milyon manat olacaq.**





Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin saxlanılmasına **9,4 milyon manat** ayrılacaq. Ölkədə fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərinin, tarix-diyarşünaslıq muzeylərinin və digər mədəniyyət müəssisələrinin saxlanılması üçün **44 milyon manat** nəzərdə tutulub.

Kütləvi informasiya vasitələrinin, o cümlədən “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin, İctimai Televiziya və Radio Yayımları Şirkətinin, “Mir” Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinin fəaliyyətinin təmin olunması məqsədilə **65,1 milyon manat** maliyyə yardımı (subsidiya) nəzərdə tutulub.






2025-ci ilin xərclərində Azərbaycan Respublikasının Kino Agentliyi publik hüquqi şəxs üçün **8,5 milyon manat**, o cümlədən Azərbaycan kinosunun davamlı inkişafının təmin edilməsi üzrə dövlət sifarişlərinin yerinə yetirilməsi ilə bağlı xərclər üçün **7,1 milyon manat** vəsait proqnozlaşdırılıb.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, tarixi və mədəni irsinin təbliği, teatr sahəsinin inkişaf etdirilməsi məqsədilə tədbirlərin maliyyələşdirilməsi üçün **10,3 milyon manat** nəzərdə tutulub.





2025-ci ilin dövlət büdcəsində VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının təmsil olunduğu siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsinə **6 milyon manat** ayrılacaq.

Bədən tərbiyəsi və idmanın təşkili üçün **61,6 milyon manat,** gənclər siyasəti xərcləri üzrə **18,4 milyon manat,** o cümlədən növbəti ildə ümumilikdə 73 olimpiya idman kompleksinin və digər idman obyektlərinin xərclərinin ödənilməsi üçün **11 milyon manat,** III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı xərclər üçün **30 milyon manat,** 35 "Gənclər evi" sosial xidmət müəssisəsinin saxlanılması üçün **5,5 milyon manat,** xüsusi olimpiya və paralimpiya təqaüdünün müəyyən olunması ilə bağlı **0,6 milyon manat** vəsait proqnozlaşdırılıb.






Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində tədbirlər, Azərbaycan xalqının tarixi və mədəni irsinin təbliği ilə bağlı tədbirlər, digər xalqların diasporları ilə əlaqələr və lobbi quruculuğu ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinə **7,1 milyon manat** ayrılacaq.



## MÜDAFİƏ VƏ MİLLİ TƏHLÜKƏSİZLİK

Müdafiə və milli təhlükəsizlik xərcləri **8 milyard 555 milyon manat** nəzərdə tutulub. ,2025-ci ilin dövlət büdcəsi xərclərinin 20,7 faizinə bərabərdir.  Bu vəsait ölkənin hərbi potensialının gücləndirilməsinə, təhlükəsizliyin təmin edilməsinə,  ordu quruçuluğunun daha da modernləşdirilməsinə, dövlət sərhədlərinin qorunmasına və hərbi sənaye kompleksinin inkişafına  yönəldiləcəkdir.

Ehtiyatda və istefada olan hərbi qulluqçulara  müvəqqəti yaşayış sahəsinin  kirayəsi ilə bağlı ödənilən pul kompensasiyası üçün 2025-ci ilin dövlət büdcəsində **15,7 milyon manat,** 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan  hərbi qulluqçuların mənzillə təmin olunması  ilə bağlı xərclərin maliyyə təminatı üçün **35 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.



## MƏHKƏMƏ HAKİMİYYƏTİ, HÜQUQ MÜHAFİZƏ VƏ PROKURORLUQ

Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri üçün 2025-ci ilin dövlət büdcəsində **3 milyard 192 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu, 2024-cü ilin proqnozuna nisbətən **102,2 milyon manat** və ya 3,3 faiz çoxdur.

- Məhkəmə hakimiyyəti – **151 milyon manat;**
- Hüquq mühafizə - **2 milyard 311,4 milyon manat;**
- Prokurorluq – **126,4 milyon manat;**
- Məhkəmə qərarlarının icrası – **10 milyon manat;**
- Hüquqi yardım – **6,1 milyon manat;**
- Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər – **587,1 milyon manat.**





Bakı Zəfər parkı, 2024-cü il



# KƏND TƏSƏRRÜFATI XƏRCLƏRİ

2025-cü ilin dövlət büdcəsindən kənd təsərrüfatı bölməsi üçün **1 milyard 203,8 milyon manat** məbləğində vəsait ayrılacaq.

- Meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyələşdirilməsi – **542,7 milyon manat**
- Kənd təsərrüfatı tədbirləri - **574,5 milyon manat**
- Baytarlıq tədbirləri - **48,5 milyon manat**
- Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər – **38,1 milyon manat.**




Bu bölmə üzrə vəsaitin **542,7 milyon manatı** Azərbaycan Respublikası ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, fermerlərin suvarma suyu ilə təchizatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma sahələrinin genişləndirilməsi, suvarma subartezian quyularının saxlanılması və digər meliorasiya tədbirlərinin maliyyə təminatına yönəldiləcək.

Kənd təsərrüfatı tədbirləri üçün **574,5 milyon manat** (2024-cü illə müqayisədə 28,3 milyon manat və ya 5,2 faiz çox), baytarlıq tədbirləri üçün **48,5 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.





Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi tədbirlərinə **527,5 milyon manat** vəsait ayrılacaq. Ərzaq təhlükəsizliyi tədbirləri üçün ayrılmış vəsait hesabına fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən əkin, tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər tonuna görə verilən məhsul, sertifikatlı 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin satışına görə verilən toxum, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova görə verilən heyvan, Azərbaycan Respublikasında istehsal edilib tədarükçülərə təhvil verilən yaş baramanın hər kiloqramına görə verilən barama subsidiyalarının, habelə lizinqə verilən və lizinq yolu ilə satılan texnikalara, suvarma sistemləri dəstinə və damazlıq heyvanların alınması üçün kənd təsərrüfatı istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına verilən  güzəştlərin, kənd təsərrüfatı sahəsində digər tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxal olunan buğdadan asılılığın azaldılması və yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına ölkənin ərzaqlıq buğda ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlərin həyata keçirilməsi məqsədilə **43 milyon manat**  vəsait ayrılacaq.

2025-ci ilin dövlət büdcəsi layihəsində baytarlıq tədbirlərinə **48,5 milyon** manat vəsait nəzərdə tutulub. Həmin vəsaitdən **4,4 milyon manat**ı xüsusi təhlükəli heyvan xəstəlikləri ilə əlaqədar zərər çəkən hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödənilməsinə, habelə **5,4 milyon manat**ı bitki mühafizəsi sahəsində xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılmasına və **7,8 milyon manat**ı aqrokimyəvi pasportların verilməsi və toxum nəzarəti üzrə tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Növbəti ilin dövlət büdcəsinin kənd təsərrüfatı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **7,3 milyon manat** təşkil edəcək.

# MƏNZİL VƏ KOMMUNAL TƏSƏRRÜFATI XƏRCLƏRİ

2025-ci il dövlət büdcəsində mənzil və kommunal xərcləri üçün **369,9 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu, 2024-cü illə müqayisədə **2,8 milyon manat** və ya 0,8 faiz azdır.

Mənzil və kommunal xərcləri üzrə ayrılmış vəsaitdən **160,4 milyon manatı** kommunal təsərrüfatına, **61,9 milyon manatı** mənzil təsərrüfatına, **13,7 milyon manatı** su təsərrüfatına, **7,6 milyon manatı** lift təsərrüfatına, **126,3 milyon manatı** isə mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xərclərə yönəldiləcək.




Mənzil və kommunal təsərrüfatı xərclərindən şəhər, rayon və qəsəbələrdə dövlət balansında olan yaşayış binalarının, o cümlədən dam örtüklərinin, fasadların və pilləkən qəfəslərinin əsaslı təmiri üçün **61,9 milyon manat,** lift təsərrüfatının saxlanılması üçün **7,6 milyon manat,** işıqlandırılma üçün **36,5 milyon** manat, yaşıllıqların salınması, saxlanılması və landşaft quruluşu işləri üçün **66,4 milyon manat** vəsait nəzərdə tutulub.

İstilik təchizatı üzrə göstərilən xidmətlərə görə satış tarifinin məhsulun maya dəyərindən aşağı olması nəticəsində yaranmış zərərin örtülməsi üçün “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinə **46,6 milyon manat** vəsait köçürüləcək.



# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

2025-ci ilin dövlət büdcəsində ətraf mühitin və təbiətin mühafizəsi, bioloji zənginliyin qorunması, torpaq və yer quruluşu, hidrometeorologiya, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq, ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi, ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə xərclər üçün **414,2 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2024-cü illə müqayisədə **37,3 milyon manat** və ya 9,9 faiz çoxdur.




Ətraf mühitin mühafizəsi xərcləri  üçün ayrılan vəsaitin **326,1 milyon manatı** ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi tədbirlərinə, **15,1 milyon manatı** torpaq və yer quruluşu tədbirlərinə, **20,1 milyon manatı** meşə təsərrüfatı tədbirlərinə, **10,6 milyon manatı** hidrometeorologiya tədbirlərinə, **9,3 milyon manatı** bioloji zənginliyin qorunması tədbirlərinə, **1,4 milyon manatı** balıqçılıq və ovçuluq tədbirlərinə, **1 milon manat** ətraf mühitin və təbiətin mühafizəsi tədbirlərinə, **30,6 milyon manatı** ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər üçün nəzərdə tutulmuşdur.

Ətraf mühitin mühafizəsi xərcləri üzrə nəzərdə tutulmuş vəsaitdən şəhər, rayon və qəsəbələrdə prospekt, küçə, meydan, park, xiyaban və digər bu qəbildən olan yerlərdə sanitar təmizlik, abadlaşdırma, təmir və yenidənqurma işlərinin həyata keçirilməsi üçün **274 milyon manat** nəzərdə tutulmuşdur.

Bərk məişət tullantılarının zərərsizləşdirilməsi üçün 2025-ci ilin dövlət büdcəsində "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə ayrılması nəzərdə tutulan subsidiyanın məbləği **29 milyon manat** olacaqdır.



Bakı Nəbatət bağı, 2024-cü il

# İQTİSADİ FƏALİYYƏT

2025-ci il dövlət büdcəsində iqtisadi fəaliyyətlə bağlı xərclər üçün **8 milyard 377,5 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 20,2 faiz təşkil edəcək.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Nəqliyyat və rabitə - **509,3 milyon manat;**
- İqtisadi və kommersiya fəaliyyəti – **53,6 milyon manat;**
- Tikinti və şəhərsalma – **6 milyard 687,5 milyon manat;**
- Geodeziya və faydalı qazıntılar – **8,2 milyon manat;**
- İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər – **1 milyard 119 milyon manat.**






Tikinti və şəhərsalma xərclərinin **2 milyard 685,4 milyon manatı** dövlət əsaslı vəsait qoyuluşuna, **4 milyard manatı** işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına yönəldiləcək. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sərnişindaşıma xidməti tarifinin maya dəyərindən aşağı olması nəticəsində yaranmış zərərin örtülməsi üçün ayrılacaq subsidiyanın həcmi **27,7 milyon manat** olacaq.

Naxçıvan Muxtar Respublikasına edilən aviareyslərə, Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin MDB ölkələrinə nəqliyyatda gedişlə bağlı tətbiq edilən güzəştlər hesabına yaranan zərərin örtülməsinə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə **5,9 milyon manat** məbləğində vəsait ödəniləcək.

2025-ci ilin dövlət büdcəsindən İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılmasına **85 milyon manat,** sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesblanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsinə **15 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

İctimai nəqliyyatda islahatların aparılmasına və digər xərclərə **150 milyon manat** xərclənəcək.

Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər üçün **27,5 milyon manat,** qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün **13,4 milyon manat**, istilik təchizatı sistemində islahatlarla bağlı tədbirlər üçün **10 milyon manat**, ölkə daxilində istehsal edilən və qiymətləri tənzimlənən yanacağın daşıyıcılar tərəfindən Naxçıvan Muxtar Respublikasına daşınmasına çəkilən əlavə xərclərin ödənilməsi üçün **10 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

2025-ci ilin dövlət büdcəsində yeni nəsil şəxsiyyət vəsiqələrinin hazırlanmasına **42 milyon manat**, Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin saxlanılmasına **8 milyon manat** ayrılacaq.

Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun fəaliyyət xərcləri üçün **10,3 milyon manat,** Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı üçün **243,1 milyon manat** vəsait proqnozlaşdırılıb.

Ölkədə turizm imkanlarının genişləndirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması üçün Dövlət Turizm Agentliyinə dövlət büdcəsindən **53,6 milyon manat** vəsaitin ayrılması nəzərdə tutulub.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda 2025-ci il üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə **15,3 milyon manat** ayrılacaq.

Növbəti ilin dövlət büdcəsinin iqtisadi fəaliyyətlə bağlı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **0,5 milyon manat** təşkil edəcəkdir.

Ağdam şəhəri,"City Hotel Agdam", 2024-cü il



# ƏSAS BÖLMƏLƏRƏ AİD EDİLMƏYƏN XƏRCLƏR

2025-ci il dövlət büdcəsinin əsas bölmələrə aid edilməyən xərcləri üzrə **1 milyard 887,8 milyon manat** vəsait nəzərdə tutulub. Bu, 2024-cü illə müqayisədə **137,5 milyon manat** və ya 7,9 faiz çoxdur.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir;

- Ehtiyat fondları – **448 milyon manat;**
- Məqsədli büdcə fondları – **420,5 milyon manat;**
- Valyuta konvertasiyası (manatın xarici valyutalara nisbətdə məzənnəsinin dəyişməsi nəticəsində yaranan fərq məbləği) – **4 milyon manat;**
- Sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər – **1 milyard 15,3 milyon manat.**




## Ehtiyat fondları

Dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra zəruri xərclərin maliyyələşdirilməsi məqsədilə ehtiyat fondlara ayrılan vəsaitin **300 milyon manatı** Azərbaycan Respublikası Prezidentinin ehtiyat fonduna, **148 milyon manatı** dövlət büdcəsinin ehtiyat fonduna yönəldiləcək.



## Məqsədli büdcə fondları

Ətraf mühitin mühafizəsi üzrə dövlət fondunun gəlirləri və xərcləri bərabər olmaqla **8 milyon manat** məbləğində proqnozlaşdırılıb. Həmin vəsait əsasən təbiətdən istifadəyə görə ödəmələr, ətraf mühitin mühafizəsi haqqında (balıqçılıq istisna olmaqla) qanunvericiliyin pozulmasına görə alınan cərimələr, müsadirə olunan ovçuluq alətlərinin satışından daxilolmalar hesabına formalaşacaq. Fondun vəsaiti ekoloji maarifləndirmə və təhsilə, ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının maddi-texniki bazasının yaradılmasına və inkişafına, həmin sahədə çalışan işçilərin maddi təminatının yaxşılaşdırılmasına yönəldiləcək.



Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun gəlirləri və xərcləri bərabər olmaqla **18,8 milyon manat** məbləğində nəzərdə tutulub. Həmin vəsait müqavilə ilə istifadəyə verilmiş meşə ehtiyatlarına görə və sair daxilolmalar hesabına formalaşacaq. Fondun vəsaitləri 2025-ci ildə meşə təsərrüfatının idarə edilməsinin maliyyələşdirilməsinə və meşəsalma işlərinə sərf ediləcək.



Mineral xammal bazasının bərpası üzrə dövlət fondunun gəlirləri və xərcləri bərabər olmaqla **1,2 milyon manat** məbləğində proqnozlaşdırılıb. Həmin vəsait mineral-xammal bazasının bərpasına yönəldilmiş ayırmalar, yerin təkinin istifadəyə verilməsinə dair müsabiqə və hərracların keçirilməsindən əldə edilən gəlirlər və digər daxilolmalar hesabına formalaşacaq. Fondun vəsaiti mineral-xammal bazasının bərpası və möhkəmləndirilməsi məqsədilə vahid texniki siyasətin həyata keçirilməsi və aparılan geoloji-kəşfiyyat işlərinin maliyyələşdirilməsinə yönəldiləcək.



Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondunun gəlirləri və xərcləri bərabər olmaqla **0,3 milyon manat** məbləğində nəzərdə tutulub. Bu vəsait əsasən balıqçılıq haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr və kompensasiyalar, balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr hesabına formalaşacaq. Fondun vəsaiti balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından səmərəli istifadə edilməsinə, onların mühafizəsinə, süni artırılmasına və bərpasına, balıqçılıq təsərrüfatı meliorasiyası işlərinin aparılmasına və digər su bioresurslarının dövlət monitorinqinin təşkilinə və keçirilməsinə sərf olunacaq.



Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının gəlirləri və xərcləri bərabər olmaqla **2,2 milyon manat** məbləğində proqnozlaşdırılıb. Həmin vəsait xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr, təbiətdən istifadəyə görə ödəmələr, bu sahədə müsadirə olunmuş məhsulların satışından daxilolmalar hesabına formalaşacaq. Fondun vəsaiti əsasən xüsusi mühafizə olunan təbiət ərazilərində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi, xüsusi mühafizə olunan təbiət ərazilərinə tələb olunan texnoloji qurğuların, cihazların, nəqliyyat vasitələrinin və digər ləvazimatların alınması və məqsədli təyinatına uyğun olan obyektlərin tikintisi və əsaslı təmiri üçün sərf olunacaq.



Nəqliyyat vasitələrinin utilizasiyası fondunun gəlirləri və xərcləri bərabər olmaqla **50 milyon manat** məbləğində proqnozlaşdırılıb. Fondun vəsaiti əsasən yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri utilizasiyaya verilmə barədə təsdiqedici sənəd təhvil verilməklə satın alınan zaman tətbiq edilən güzəşt məbləğlərinin nəqliyyat vasitələrinin satıcılarına geri ödənilməsi, utilizasiyaya verilmiş nəqliyyat vasitələri üçün birdəfəlik ödənişlərin ödənilməsinə istifadə olunur.



## Sosial-iqtisadi və digər tədbirlər

Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası xərcləri üçün 2025-ci ilin dövlət büdcəsində **28 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Dövlət ehtiyatlarının yaradılması üçün **35 milyon manat**, fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər üçün **20 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsinə **629,2 milyon manat** (bu vəsaitin **159 milyon manatı** müdafiə və milli təhlükəsizlik xərcərində nəzərə alınıb) vəsait ayrılacaq.

Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi üçün **50 milyon manat**, xüsusi müdafiə olunan sənədlərin (aksiz markalarının) çap edilməsi üçün **9 milyon manat**, işğaldan azad olunmuş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımının göstərilməsi üçün **35,8 milyon manat,** Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmənin qərarlarının icrası ilə bağlı xərclərin maliyyə təminatı üçün **39,9 milyon manat,** dövlət təltiflərinin hazırlanması ilə bağlı xərclər üçün **3,5 milyon manat** vəsait nəzərdə tutulub.

2025-ci ilin dövlət büdcəsinin əsas bölmələrə aid edilməyən xərclər bölməsində büdcə təşkilatlarının büdcədənkənar xərcləri üçün **100 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Yeni büdcə ilində yerli özünüidarəetmə orqanlarının büdcələrinə ayrılacaq vəsait **1 milyon manat** artırılaraq **13,5 milyon manata** çatdırılıb. Bu vəsaitin **7,5 milyon manatı** onların gəlir və xərclərini tənzimləmək məqsədilə dotasiya, **1,6 milyon manatı** subvensiya, **4.4 milyon manatı** isə su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı subsidiyalar üçün nəzərdə tutulub.







# BEYNƏLXALQ MÜNASİBƏTLƏR, BEYNƏLXALQ TƏŞKİLATLARA ÜZVLÜK HAQLARI VƏ DİGƏR XƏRCLƏR

2025-ci ilin dövlət büdcəsində beynəlxalq münasibətlər, xarici yardımlar, Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması və Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı ilə bağlı xərclər **778,4 milyon manat** məbləğində proqnozlaşdırılıb.

Xərc istiqamətləri aşağıdakı kimi qruplaşdırılıb:

- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının saxlanılması xərcləri - **205 milyon manat;**
- Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak ilə bağlı xərclər - **32,5 milyon manat;**
- Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclər - **17,2 milyon manat;**
- Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclər - **238,1 milyon manat;**
- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər - **10 milyon manat;**
- Xarici yardımlar üzrə xərclər - **24,5 milyon manat;**
- Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndəliklərinin saxlanılması üzrə xərclər - **8 milyon manat;**
- Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı ilə bağlı xərclər - **243,1 milyon manat.**



# ƏSASLI XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ

2025-ci il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsi üçün **14 milyard 254,1 milyon manat** xərclənəcək. Bu, dövlət büdcəsi xərclərinin 34,4 faizinə bərabərdir.
Əsaslı xərclərin bölgüsü aşağıdakı kimidir:




- İşğaldan azad olunmuş ərazilərdə sosial və infrastruktur layihələrinin maliyyələşdirilməsi;
- Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması;
- Dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri;
- Tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi;
- Digər əsaslı xərclər.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2025-ci ilin dövlət büdcəsindən **4 milyard manat** vəsait nəzərdə tutulub.



Murovdağ tuneli, 2024-cü il

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsinin əsaslı xərclərindən qarşıda duran vəzifələrə və bağlanılmış müqavilələrə uyğun olaraq xüsusi müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyə təminatı üçün **4 milyard 580 milyon manat** məbləğində vəsait proqnozlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə **880 milyon manat** və ya 23,8 faiz çoxdur.

2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün **2 milyard 685,4 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Həmin vəsaitin **539,5 milyon manatı** sosial və infrastruktur təyinatlı layihələrin (sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı layihələrin, bina və qurğuların, yolların, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisinə, yenidən qurulmasına, əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin, o cümlədən əsas vəsaitlərin, tikililərin, yaşayış və qeyri-yaşayış binalarının və s. alınmasına), **1 milyard 100 milyon manatı** "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihələrinin maliyyələşdirilməsinə, **150 milyon manatı** "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına və **895,9 milyon manatı** beynəlxalq kreditor qurumlarının təqdim etdiyi kreditlər hesabına həyata keçirilən sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

2025-ci ilin dövlət büdcəsinin əsaslı xərclərdən tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi üçün **1 milyard 808,6 milyon manat** məbləğində vəsait ayrılacaqdır. Həmin vəsait (müdafiə, hüquq mühafizə orqanları və büdcə təşkilatlarının büdcədənkənar vəsaitlər də nəzərə almaqla) digər büdcə və büdcədən maliyyə yardımı alan təşkilatlar tərəfindən həyata keçiriləcək tikinti, bərpa, yenidənqurma, əsaslı təmir işlərinə, həmçinin müxtəlif əsaslı alışların həyata keçirilməsinə sərf ediləcəkdir.

Digər əsaslı xərclər üçün **1 milyard 180,1 milyon manat** vəsait nəzərdə tutulub. Bunun **340 milyon manatı** "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna, **243,1 milyon manatı** Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payının maliyyələşdirilməsinə, **597 milyon manatı** İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılmasına və digər strateji layihələrdə nizamnamə kapitalının artırılmasına yönəldiləcək.









# DÖVLƏT BÜDCƏSİNİN YERLİ GƏLİR VƏ XƏRCLƏRİ

2025-ci il dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər **793,9 milyon manat,** yerli xərclər **799,2 milyon manat** məbləğində proqnozlaşdırılır.

Yerli xərclər aşağıdakı istiqamətə yönəldiləcək:

- Ətraf mühitin mühafizəsi xərcləri (sanitar təmizlik və abadlaşdırılma xidmətləri haqqının ödənilməsi və s.) - **274 milyon manat;**
- İcra hakimiyyəti orqanlarının saxlanılması - **225 milyon manat;**
- Mənzil və kommunal təsərrüfatı xərcləri - **210,2 milyon manat;**
- Nəqliyyat və rabitə xərcləri (yolların əsaslı təmiri xərcləri) - **53,6 milyon manat;**
- Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri – **6,2 milyon manat;**
- Digər xərclər – **30,3 milyon manat.**




İqtisadi təsnifata uyğun olaraq bölgü belə olacaq:

- Əməyin ödənişi xərcləri - **205,9 milyon manat;**
- İş və xidmətlərin alınması xərcləri - **413,2 milyon manat;**
- Malların satınalınması ilə bağlı xərclər - **5 milyon manat;**
- Qeyri-maliyyə aktivlərinə aid olan xərclər - **117 milyon manat;**
- Subsidiyalar - **55,7 milyon manat;**
- Sosial ödənişlər - **2,4 milyon manat.**




2025-ci ildə Azərbaycan Respublikasının şəhər və rayonlarından 62-si Laçın və Zəngilan rayonları əlavə olunmaqla) xərclərini dövlət büdcəsindən maliyyə yardımı (dotasiya) almadan öz gəlirləri hesabına təmin edəcəklər.Qalan 5 rayona isə yerli gəlir və xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən **5,3 milyon manat** maliyyə yardımı ayrılması nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə **4,3 milyon manat** və ya 44,8 faiz azdır.

# DÖVLƏT BÜDCƏSİNİN KƏSİRİ

2025-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi **3 milyard 51,6 milyon manat** məbləğində nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə **302,7 milyon manat** və ya 9 faiz azdır. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək.

Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar, daxili və xarici borclanma və 2025-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının və məqsədli büdcə fondlarının sərbəst qalığı hesabına həyata keçiriləcək.



# DÖVLƏT BORCU

2024-cü il 1 iyul tarixi vəziyyətinə Azərbaycan Respublikasının ümumi dövlət borcunun həcmi **25 milyard 686,1 milyon manata** bərabər olub. Bu, 2024-cü il üzrə proqnozlaşdırılan ÜDM-in 21,2 faizini təşkil edir. Məcmu dövlət borcunun **9 milyard 114,2 milyon manatı** xarici dövlət borcunun, **16 milyard 571,9 milyon manatı** daxili dövlət borcunun payına düşür.




Ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə imzalanmış müqavilələr əsasında altı ay ərzində istifadə olunmuş kreditlər və həyata keçirilmiş əsas borc ödənişləri, habelə xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla, 2024-cü il 1 iyul tarixinə xarici dövlət borcu **5 milyard 361,3 milyon ABŞ dolları** ekvivalentində və ya ÜDM-in 7,5 faizini təşkil edib. 2024-cü ilin ilk yarısında xarici dövlət borcunun 17 faiz azaldılmasına nail olunub.




Xarici dövlət borc portfelinin **51,1 faizini sabit, 48,9 faizini** isə **dəyişkən** faiz dərəcəsi ilə olan borclar təşkil edib.




İmzalanmış müqavilələrə uyğun olaraq xarici dövlət borcunun **42,1 faizi 5 ilə qədər** olan müddətdə, **49,2** faizi **5 ildən 10 ilə qədər** olan müddətdə, **8,7 faizi** isə **10 ildən yuxarı** olan müddətdə kreditorlara qaytarılmalıdır.

Xarici dövlət borcunun 86,8 faizi **ABŞ dollarında,** 6 faizi **avroda**, 3,6 faizi **XBH-da** (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları), 3 faizi **yapon yenində**, 0,6 faizi isə **digər** valyutalarda cəlb olunub.

2024-cü il 1 iyul tarixinə daxili dövlət borcu **16 milyard 571,9 milyon manat** və ya ÜDM-in 13,7 faizini təşkil edib. 2024-ci ilin əvvəli ilə müqayisədə daxili dövlət borcu 4,4 faiz artıb. Daxili dövlət borcunun **7 milyard 280,7 milyon manatını** dövlət qiymətli kağızları üzrə qalıq borc, **9 milyard 291,2 milyon manatını** isə "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin Mərkəzi Bank qarşısında dövlət zəmanətli borcu üzrə hökumətin üzərinə götürdüyü öhdəliklər təşkil edir.

Dövlət qiymətli kağızlarının 19,5 faizi 1 illik, 67 faizi 2 və 3 illik, 13,5 faizi isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşür.






## Dövlət borclarına xidmətə nə qədər vəsait ayrılıb?

2024-cü ilin 6 ayı ərzində vaxtı çatmış öhdəliklərin təmin edilməsi məqsədilə **3 milyard 186,1 milyon manat** məbləğində vəsait sərf olunub. Bu vəsaitin **2 milyard 190,6 milyon manatını** xarici dövlət borcuna xidmət xərcləri (əsas borc üzrə **1 milyard 940,3 miyon manat** və faiz borcu üzrə **250,2 milyon manat), 995,6 milyon manatı** daxili dövlət borcuna xidmət xərclərin (əsas borc üzrə **825,5 milyon manat** və faiz borcu üzrə **170,1 milyon manat)** payına düşür.




Yuxarıda qeyd olunan **3 milyard 186,1 milyon manatlıq** öhdəliyin icrası üçün xərclənən vəsaitin **1 milyard 270,3 milyon manatı** dövlət büdcəsinin dövlət borcuna xidmət xərcləri, **1 milyard 915,8 milyon manatı** daxili maliyyə bazarında emissiya olunan dövlət istiqrazlarından əldə edilmiş vəsait hesabına təmin olunub.

2025-ci il dövlət büdcəsində dövlət borclarına xidmətlə bağlı **2 milyard 399,6 milyon manat** məbləğində xərc vəsaiti proqnozlaşdırılıb. Həmin xərclərin **1 milyard 441,6 milyon manatını** xarici dövlət borcu üzrə xərclər, **958 milyon manatını** isə daxili dövlət borcu üzrə xərclər təşkil edir.




Dövlət istiqrazları portfelinin 2025-ci il ərzində vaxtı çatacaq əsas borc ödənişlərinin yenidən maliyyələşdirilməsi və dövlət büdcəsi kəsirinin bir qisminin bağlanması daxili bazarda dövlət istiqrazlarının yerləşdirilməsi proqramı hesabına cəlb olunması nəzərdə tutulur.

2025-ci ilin dövlət büdcəsində xarici dövlət borcuna xidmət üçün nəzərdə tutulan **1 milyard 441,6 milyon manat** məbləğində vəsaitin **1 milyard 258,9 milyon manatı** hökümət tərəfindən beynəlxalq maliyyə-kredit qurumlarından birbaşa cəlb edilmiş kreditlər üzrə, **182,7 milyon manatı** isə bir sıra dövlət müəssisələrinin ("Azərbaycan Dəmir Yolları" QSC, "Azərenerji" ASC) əvəzinə ödənilməsi proqnozlaşdırılır.

Azərbaycan Respublikasının 2025-ci il üzrə xarici dövlət borclanmasının yuxarı həddi **3,5 milyard manat,** daxili dövlət borclanmasının yuxarı həddi **2 milyard manat** və il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi **2 milyard manat** məbləğində nəzərdə tutulur.

2024-cü ilin 1 iyul tarixinə "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun qalığı **777 milyon manat** və **250 milyon ABŞ dolları** təşkil edib.



# YAŞIL BÜDCƏ

Hazırda iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Dövlət maliyyəsinin iqlim dəyişikliyinə həssaslığının artırılması, iqlimə həssas büdcənin tətbiqi iqlimlə bağlı dövlət xərclərinin müəyyən edilməsinə, monitorinq və qiymətləndirilmənin aparılmasına, əsaslı büdcə qərarlarının verilməsinə imkan yaradır.

Ölkə ərazisində meşələrin bərpası, yeni meşə zolaqlarının salınması və onlara xidmət, şəhər və rayon ərazilərində sanitar-təmizlik işlərinin aparılması, park və meydanların abadlaşdırılması və yenidən qurulması üçün 2025-ci ilin dövlət büdcəsindən ətraf mühitin mühafizəsi xərclərinə **414,2 milyon manat** ayrılacaq. Bu, 2024-cü ilə nisbətən **37,3 milyon manat** çoxdur.

İqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsi istiqamətlərində büdcə islahatlarına başlanılmış, "Ətraf mühitin mühafizəsi" və "Kənd təsərrüfatı" sektorları, ekoloji profilli məqsədli büdcə fondları və "2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində yaşıl büdcə üzrə xərclərin işarələnməsi aparılmış və 2025-ci ildə bu istiqamət üzrə **1,5 milyard manat** vəsait nəzərdə tutulub. Bu məbləğin **1,2 milyard manatı** iqlim dəyişikliyi üzrə adaptasiya və mitiqasiya tədbirlərinə, **342 milyon manatı** isə ətraf mühitin mühafizəsi tədbirlərinə yönəldiləcək.

**Yaşıl büdcə (Green Budget)** ekoloji davamlılıq və ətraf mühitin qorunması prinsiplərini nəzərə alan dövlət maliyyə idarəetmə yanaşmasıdır. Bu konsepsiya, hökumətlərin büdcə planlama və xərcləmə prosesində ətraf mühitə təsirləri qiymətləndirməyi və "yaşıl iqtisadiyyat" məqsədlərinə uyğun maliyyə ayırmalarını təmin etməyi hədəfləyir.

Strategiyada, həmçinin ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyasının tətbiq ediləcəyi qeyd olunub. Dövlət-özəl tərəfdaşlığı əsasında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının tikintisi üzrə müqavilələr imzalanmış və stansiyaların ötürücü şəbəkəyə qoşulması üçün 2022-2023-cü illərdə dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərindən **56,8 milyon manat** məbləğində vəsait ödənilib.

2021-ci il 3 iyun tarixində Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanmış müqaviləyə əsasən, Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə "Şəfəq" günəş elektrik stansiyasının inşası üzrə Azərbaycan tərəfinin payı **102 milyon manat** təşkil edir. Həmin vəsaitin bugünədək **47 milyon manat** hissəsi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Eləcə də, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi" işləri üçün bugünədək dövlət büdcəsindən **43,05 milyon manat** ayrılıb.

Energetika Nazirliyi ilə " Masdar" şirkəti arasında 2022-ci il 4 iyun tarixidı imzalanmış müqaviləyə əsasən 1 QVt gücündə tikiləcək külək və günəş elektrik stansiyalarının elektrikötürücü şəbəkəyə inteqrasiyası tədbirləri üzrə 2025-ci ilin dövlət büdcəsindən **50 milyon manat** məbləğində vəsait " Azərenerji" ASC-yə ayrılıb.

Görülən işlərin davamı olaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi Azərbaycanda iqlim dəyişikliklərinin mitiqasiyası və onlara adaptasiyanın prioritet istiqamətlərdən biri olmasının əyani sübutudur.

Ölkəmizin 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi də iqlim dəyişikliklərinə qarşı mübarizə ilə əlaqədar həyata keçiriləcək qlobal səylərə mühüm töhfə verməyə xidmət edir.



**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
AZ1022, Baki şəhəri, Səməd Vurğun küç., 135
Tel: +994 12 404 46 99; Faks.: +994 12 404 47 20
www.maliyye.gov.az
e-mail: office@maliyye.gov.az
8778 - Çağrı Mərkəzi